ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

№ 9 (1363) ❖ Cümə, 3 mart 2023-cü il ❖ Qəzet 1984-cü ildən nəşr olunur

Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü keçirilib

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edib

Martın 2-də Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü keçirilib.

Prezident İlham Əliyev Zirvə görüşündə iştirak edib.

Zirvə görüşünə 70-ə yaxın ölkənin dövlət və hökumət başçıları, 5 ölkənin, o cümlədən Bosniya və Herseqovina, Türkmənistan, Özbəkistan, İraq, Liviyanın prezidentləri, üç ölkənin - Kuba, Qabon, Tanzaniyanın Vitse-prezidentləri, Əlcəzair və Keniyanın Baş nazirləri, müxtəlif ölkələrin yüksək səviyyəli nümayəndələri, həmçinin beynəlxalq təşkilatların rəhbərləri - Dünya Turizm Təşkilatının Baş katibi Zurab Pololikaşvili, Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Baş direktoru Antonio Vitorino, BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovaya, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Xusrav Noziri və digərləri, eyni zamanda, nazirlər, nazir müavinləri, səfirlər və s. qatılıblar.

Dövlətimizin başçısı Zirvə görüşündə iştirak edən bir qrup nümayəndəni qarşılayıb. Tədbir öncəsi birgə foto çəkdirilib.

Qoşulmama Hərəkatına sədrlik edən Prezident İlham Əliyev tədbiri açaraq iştirakçıları salamlayıb. Sonra Türkiyə və Suriyada baş vermiş zəlzələlərin qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Daha sonra Zirvə görüşünün gündəliyi təsdiqlənib.

Dövlətimizin başçısı Zirvə görüşündə Azərbaycanın sədrliyinin müddətinin yekdil qərarla daha bir il uzadıldığına görə göstərdikləri dəstək üçün üzv dövlətlərə minnətdarlığını bildirib.

”Qoşulmama Hərəkatının sədri olaraq məqsədimiz ədaləti və beynəlxalq hüququ müdafiə etməkdir. Pandemiyanın başlamasından dərhal sonra COVID-19-a qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış edən məhz Qoşulmama Hərəkatı oldu... Mən həmin Zirvə toplantısında BMT Baş Assambleyasının liderlər səviyyəsində xüsusi sessiyasının çağırılmasını təklif etmişdim. Bu təklif BMT-yə üzv dövlətlər arasında böyük dəstək qazandı”, - deyə Prezident İlham Əliyev qeyd edib.

Dövlətimizin başçısı vurğulayıb ki, Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyi qəbul edilib. Biz bəzi varlı ölkələrin həyata keçirdiyi ”peyvənd millətçiliyi”ni xüsusilə pandemiya ilə mübarizədə ciddi maneə kimi qiymətləndirdik. Nəticədə Qoşulmama Hərəkatı bütün ölkələrin peyvəndlərdən ədalətli və vahid şəkildə istifadəsini təmin etmək üçün 2021-ci ildə BMT-nin İnsan Hüquqları Şurasında və BMT Baş Assambleyasında qəbul edilmiş iki qətnamənin təşəbbüskarı oldu.

Prezident İlham Əliyev Azərbaycanın əksəriyyəti Qoşulmama Hərəkatı ailəsinin üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı ya ikitərəfli kanallar, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə yardımı və humanitar yardım göstərdiyini deyib.

Qeyd edib ki, Azərbaycan Qoşulmama Hərəkatının institusional inkişafına güclü dəstək verir: ”2022-ci ilin iyulunda Şuşa Razılaşması əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatı yaradılıb. Təşkilatın daimi katibliyi Bakıda yerləşəcək. Məqsədimiz institusional davamlılıq yaratmaq və Azərbaycandan sonra sədrliyi təhvil alacaq üzvlərə uğurlu miras qoymaqdır”.

Dövlətimizin başçısı son bir neçə onillikdə mövcud olan beynəlxalq təhlükəsizlik arxitekturasının köklü dəyişikliklərlə üzləşdiyini, multilateralizmin təhlükə altında olduğunu, beynəlxalq hüququn norma və prinsiplərinin aşınması ilə beynəlxalq düzənin təhdid edildiyini bildirib: ”Suverenliyin və ərazi bütövlüyünün pozulması, dövlətlərin daxili işlərinə müdaxilə halları daha çox müşahidə olunmaqdadır. Aparıcı beynəlxalq təşkilatların qərarları ya icra olunmur, ya da selektiv yanaşma və ikili standartlar tətbiq edilir.

Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir”.

Prezident İlham Əliyev diqqətə çatdırıb ki, dünyada uzun illərdir müzakirə olunan digər mühüm məsələ BMT sistemində aparılan islahatlardır. BMT Təhlükəsizlik Şurası keçmişi xatırladır və indiki reallığı əks etdirmir, onun tərkibi genişləndirilməlidir ki, orada daha çox ölkə təmsil olunsun və coğrafi baxımdan daha ədalətli olsun.

Dövlətimizin başçısı pandemiyanın ”2030: Davamlı İnkişaf Məqsədləri”nin icra olunmasına mənfi təsir etdiyinə diqqət çəkib: ”Bu məqsədlə biz BMT-nin COVID-19-dan sonra Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılmasını təklif etmişik. Bu panel postpandemiya dövrü üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlaya bilər. Mən Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə çağırıram”.

Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının fəaliyyəti ilə bağlı digər məsələyə də toxunub: ”Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə günün içində icra olunub. Lakin Azərbaycana gəldikdə isə, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə 30 ilə yaxın bir müddətdə məhəl qoyulmamışdır. 2020-ci ildə Azərbaycan ərazi bütövlüyünü və tarixi ədaləti hərbi-siyasi yolla bərpa etdi və Təhlükəsizlik Şurası qətnamələrinin icrasını özü təmin etdi. Yəqin ki, bu hadisə BMT-nin əsası qoyulandan bəri dünyada ilk dəfə idi baş verirdi”.

Dövlətimizin başçısı işğal illəri ərzində Azərbaycanın yüzlərlə şəhər və kəndinin Ermənistan tərəfindən məqsədyönlü şəkildə dağıdıldığını, bütün mədəni və dini abidələrin talan və qarət edildiyini deyib. Qeyd edib ki, Azərbaycan işğaldan azad olunmuş ərazilərdə öz maliyyə resursları ilə genişmiqyaslı yenidənqurma işləri aparır. Lakin Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. İkinci Qarabağ müharibəsindən sonra, yəni 2020-ci ilin noyabr ayından bəri 300 azərbaycanlı mina partlayışı nəticəsində həlak olmuş və ya yaralanmışdır.

Prezident İlham Əliyev Azərbaycanın minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü fəal şəkildə təşviq etdiyini deyib, Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə dəvət edib.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi Qoşulmama Hərəkatına üzv dövlətlərin legitim maraqlarının müdafiəsi və Hərəkatın beynəlxalq arenada mövqeyinin güclənməsi üzrə səylərini əsirgəməyəcəyinə əminliyini bildirib.

Daha sonra çıxışların ardınca Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun videomüraciəti dinlənilib.

Tədbir plenar sessiyalarla davam edib.

"Heydər Əliyev və Azərbaycan ədəbi-ictimai fikri" mövzusunda elmi sessiya

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Heydər Əliyev və Azərbaycan ədəbi-ictimai fikri" mövzusunda elmi sessiya keçirilib.

"Heydər Əliyev İli" çərçivəsində ölkəmizdə və dünyada Ulu Öndərə həsr olunmuş silsilə tədbirlərin davam etdiyini deyən AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli bu istiqamətdə Akademiyanın Tədbirlər planının da uğurla icra olunduğunu söyləyib. Qeyd edib ki, AMEA-nın tədbirləri respublika və Akademiya miqyasında həyata keçirilir və alimlərimiz Ümummilli Liderin həyatı və fəaliyyətinin dərindən öyrənilməsini, dahi şəxsiyyətin Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətlərinin elmi cəhətdən əsaslandırılmış şəkildə ictimaiyyətə çatdırılmasını özünün borcu hesab edir.

Ulu Öndərin çoxəsrlik tariximizin nadir şəxsiyyətlərindən biri və zirvələri fəth etmiş görkəmli dövlət xadimi olduğunu bildirən akademik İsa Həbibbəyli vurğulayıb ki, Azərbaycanın yarıməsrlik inkişafının əsası Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər hələ Dövlət Təhlükəsizliyi Komitəsində çalışdığı illərdə milli kadrların hazırlanması və irəli çəkilməsi işinə xüsusi diqqət yetirib. Akademik diqqətə çatdırıb ki, Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi illərdə qısa müddətdə həyata keçirdiyi geniş islahatlarla Azərbaycanı keçmiş SSRİ-nin ən qabaqcıl ölkələrindən birinə çevirdi. 1990-cı illərdə isə Azərbaycanın müstəqilliyini itirmək təhlükəsini aradan qaldırdı, dövlət orqanlarını yenidən formalaşdırmaqla əbədi müstəqilliyimizin təməllərini atdı.

"Müasir dövrdə isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün sahələrdə daha da inkişaf etdirilib, regionun və dünyanın aparıcı dövlətlərindən birinə çevrilib. Vətən müharibəsindəki şanlı Qələbə çoxəsrlik tariximizin nadir hadisəsidir və Müzəffər Ali Baş Komandan İlham Əliyev bu tarixə özünün əbədi imzasını qoyub. Xalqımız inanır ki, Prezident İlham Əliyevin iradəsi ilə Zəngəzur dəhlizi də açılacaq, Ermənistanla sülh müqaviləsi imzalanacaq, Azərbaycan regionda və dünyada söz sahibi kimi öz mövqeyini daha da möhkəmləndirəcəkdir", - deyə akademik İsa Həbibbəyli vurğulayıb.

Akademiyanın Tədbirlər planını diqqətə çatdıran akademik İsa Həbibbəyli aprel ayında "Heydər Əliyev İli"nə həsr olunmuş AMEA-nın Ümumi yığıncağının keçiriləcəyini, Azərbaycan və Türkiyə alimlərinin iştirakı ilə "Bir millət - iki dövlət" mövzusunda elmi konfransın təşkil olunacağını, "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası" sənədli filmin hazırlanacağını deyib. Həmçinin AMEA-nın "Heydər Əliyev İli"nə ən böyük töhfəsi olan və 2023-2024-cü illərdə nəşrə hazırlanan "Heydər Əliyev Ensiklopediyası"nın sözlüyünün layihəsinin hazırlandığı barədə də məlumat verib.

Ədəbiyyat İnstitutu tərəfindən isə "Heydər Əliyevin bədii obrazı: tarixilik və müasirlik" adlı monoqrafiyanın və Heydər Əliyevin Azərbaycan ədəbiyyatı ilə bağlı Fərman və sərəncamlarından ibarət kitabın nəşrə hazırlandığını bildirib. Bundan əlavə, institutun "Azərbaycan ədəbiyyatşünaslığı" jurnalının bir buraxılışının Ulu Öndərə həsr olunacağını diqqətə çatdırıb.

Tədbirdə, həmçinin Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin "Azərbaycan reallığında Heydər Əliyev epoxası", AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun "Müstəqillik dövrü nəsrində Heydər Əliyev", filologiya elmləri doktoru Elnarə Akimovanın "Ədəbiyyatda azadlıq idealarının intişarında Heydər Əliyevin rolu", filologiya elmləri doktoru Əlizadə Əsgərlinin "Heydər Əliyev: dünya sivilizasiyasında elit şəxsiyyət" və filologiya elmləri doktoru, professor Vüqar Əhmədin "Heydər Əliyev və Azərbaycan mətbuatı" mövzusunda məruzələri dinlənilib.

Dissertasiya şuralarının fəaliyyətinin nəticələrinə dair müzakirələr aparılıb

Martın 1-də AMEA-nın Rəyasət Heyətinin binasında 2019-2022-ci illər ərzində Azərbaycan Respublikasının elmi müəssisə və təşkilatlarının, ali təhsil müəssisələrinin nəzdində fəaliyyət göstərmiş dissertasiya şuralarının fəaliyyətinin nəticələrinə dair yığıncaq keçirilib.

Yığıncaqda AMEA Rəyasət Heyətinin üzvləri, bir sıra dövlət qurumlarının rəhbərləri, ali təhsil müəssisələrinin rektorları, respublika üzrə dissertasiya şuralarının sədrləri və elmi katibləri, AMEA-nın elmi müəssisə və təşkilatlarının nümayəndələri iştirak ediblər.

Tədbirdə giriş nitqi ilə çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, bugünkü iclasla Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (AAK) Azərbaycan cəmiyyəti ilə dialoqda özünün hesabatını təqdim edir və müzakirələr aparmağa açıq olduğunu bəyan edir. Ali Attestasiya Komissiyasının elmdə Azərbaycanın milli, dövlətçilik və bəşəri maraqlarını qorumağa xidmət etdiyini deyən AMEA rəhbəri AAK-ın son illərdə Azərbaycan elminə əhəmiyyətli töhfələr verdiyini söyləyib.

"Ali Attestasiya Komissiyasının əsasnaməsi son bir neçə ildə yenilənərək ölkədə kadr hazırlığına və dünyada gedən proseslərə uyğunlaşdırılıb. Təkmilləşdirilmiş əsasnamədəki prosedurlar iddiaçıların xeyrinə olaraq xeyli dərəcədə sadələşdirilib və elmi kadrların kəmiyyətcə və keyfiyyətcə yenidən hazırlanmasına xidmət etməyə doğru istiqamətləndirilib. Bu gün aparılacaq müzakirələr, səsləndiriləcək fikirlər, təkliflər ümumiyyətlə ölkəmizdə elmi kadrların hazırlanması və qurumun fəaliyyətinin təkmilləşdirilməsi, yeniləşdirilməsi istiqamətində atılacaq daha bir addım olacaqdır. Bu gün dinləyəcəyimiz hesabat bir növ respublikanın elmi müəssisə və təşkilatlarının, eləcə də ali təhsil müəssisələrinin nəzdindəki dissertasiya şuralarının fəaliyyətinin monitorinqidir. Bu isə öz növbəsində bundan sonrakı mərhələdə dissertasiya şuralarının fəaliyyətini yenidən qurmağa və qarşıda duran vəzifələrimizi müəyyən etməyə kömək edəcək", - deyə akademik İsa Həbibbəyli vurğulayıb.

AMEA rəhbəri qeyd edib ki, bütövlükdə aparılan müzakirələr Prezident İlham Əliyevin Azərbaycan elmi qarşısında qoyduğu vəzifələrin, ölkəmizdə yeni nəsil elmi kadrların hazırlanması istiqamətində uyğun vəzifələrin həyata keçirilməsi sahəsində yeni çağırışları meydana qoyan əhəmiyyətli tədbirə çevriləcək.

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri, iqtisad elmləri doktoru, professor Famil Mustafayev 2019-2022-ci illərdə Azərbaycan Respublikasında elmi dərəcələrin və elmi adların verilməsi ilə bağlı hesabat məruzəsi dinlənilib. Famil Mustafayev bildirib ki, ölkə başçısı İlham Əliyevin 2019-cu il 11 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş elmi dərəcə və elmi adların verilməsi qaydası haqqında əsasnamələr bu sahədəki fəaliyyətin yeni dövrünün başlanğıcı hesab edilir. Qeyd edib ki, keçən 3 il ərzində dissertasiya şuraları və elmi seminarların fəaliyyəti yeni qaydalar üzrə təşkil olunub, müdafiə və səsvermə prosedurlarının keçirilməsində əsaslı dəyişikliklər edilib.

Pandemiyanın meydana çıxması və xüsusi karantin rejiminə uyğun olaraq müasir texnologiyaların tətbiqi ilə elmi seminar və müdafiələrin onlayn formatda keçirildiyini deyən AAK-ın sədri səsvermə prosedurlarının onlayn keçirilməsinin şəffaflığın təmin edilməsi baxımından gələcəkdə də tətbiqinin zəruri olduğunu vurğulayıb.

Prezident İlham Əliyevin 2022-ci il 26 noyabr tarixli Fərmanı ilə müvafiq əsasnamələrə dəyişikliklər haqqında ətraflı məlumat verən AAK-ın sədri həmin dəyişikliklərin həm elmin gəncləşməsinə, həm də elmi dərəcə və adların verilməsi prosedurlarına müsbət təsir göstərəcəyini bildirib.

Hesabat dövründə dissertasiya şuralarının fəaliyyətinə dair statistik məlumatları təqdim edən Famil Mustafayev müvafiq əsasnamələrin qəbulundan sonra Komissiyada 25 elm sahəsi üzrə 1034 şəxsə elmi dərəcənin verildiyini, imtina barədə 452 qərarın qəbul edildiyini nəzərə çatdırıb. Ali təhsil müəssisələri üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilməsindən imtina edilmiş işlərin sayı 198, elmi müəssisə və təşkilatlar üzrə isə 212 olub. Elmi plagiat hallarının təəssüf doğurduğunu vurğulayan Famil Mustafayev plagiat faktları əsasında fəlsəfə doktoru elmi dərəcəsinin verilməsindən imtina edilmiş işlərin sayının 70 olduğunu bildirib. Qeyd olunub ki, elmlər doktoru elmi dərəcəsi üzrə isə Komissiyaya 213 iş daxil olub, 156 şəxsə elmlər doktoru elmlər dərəcəsinin verilməsi haqqında qərar qəbul olunub. İmtina edilmiş işlərin sayı isə 42 olub.

Elmi adlar üzrə statistik məlumatları da təqdim edən AAK-ın sədri hesabat dövründə 353 şəxsə "Dosent" adının, 57 şəxsə isə "Professor" elmi adının verildiyini bildirib, həmçinin nostrifikasiya və təkrar attestasiya əsasında 76 nəfərin sənədinin tanındığını diqqətə çatdırıb.

Daha sonra dissertasiya şuralarının işindəki nöqsanlardan da bəhs edən Famil Mustafayev Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının fəaliyyətinin təkmilləşdirilməsi, hər bir sahə üzrə təsdiq edilmiş işlərin reyestrinin yaradılmasının əhəmiyyətini qeyd edib.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında elmi dərəcələrin və elmi adların verilməsi ilə bağlı hesabatın ictimaiyyətə təqdim olunmasının və bu istiqamətdə müzakirələrin aparılmasının görülən işlərin keyfiyyətinin yüksəldilməsinə xidmət edəcəyini deyib.

Sonra dissertasiya şuralarının fəaliyyətinə dair müzakirələr aparılıb.

Müzakirələrdə akademik Vaqif Abbasov, AMEA-nın müxbir üzvü Nuru Bayramov, professor İlham Məmmədzadə, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlı və Azərbaycan Dövlət Aqrar Universitetinin elmi katibi Səbuhi Məmmədov çıxış edərək fikir və təkliflərini səsləndirib, hesabatı qənaətbəxş qiymətləndiriblər.

Çıxışlardan sonra Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayev səsləndirilən sualları cavablandırıb.

Sonda çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli dissertasiya işlərinin keyfiyyətinə diqqətin artırılmasının və problem şuralarının strukturuna yenidən baxılmasının vacibliyini bildirib. Həmçinin elmdə qocalmanın qarşısının alınması və yeni nəsil elmi kadrların yetişdirilməsi məqsədilə fəlsəfə doktorluğu üzrə dissertasiya işini vaxtından əvvəl yazıb bitirən iddiaçıların müdafiəyə növbədənkənar buraxılmasının əhəmiyyətini vurğulayıb.

AMEA Rəyasət Heyətinin iclası

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib.

İclasda AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, elmi müəssisə və təşkilatların baş direktorları və aidiyyəti şəxslər iştirak ediblər.

"Humanitar və ictimai elmlər üzrə tədqiqatlarda ədəbi-tarixi şəxsiyyətlərin tədqiq edilməsi vəziyyəti və müstəqillik dövrü Azərbaycan elminin vəzifələri" mövzusunda məruzə ilə çıxış edən akademik İsa Həbibbəyli bildirib ki, XX əsrin yetmişinci illərində irəli sürülən "İnkişaf etmiş sosializm" konsepsiyasının əsas müddəalarından olan "sovet xalqı" anlayışı ilə xalqların milli kimliyinin unutdurulmağa çalışıldığı sahəsində müəyyən addımlar atılmışdır. Bu düşüncəyə qarşı qismən də olsa, görkəmli sənət xadimləri vasitəsilə müqavimətin göstərildiyini deyən AMEA rəhbəri bildirib ki, SSRİ xalqlarının kökündən, tarixindən, milliyyətindən, ədəbi-tarixi şəxsiyyətlərindən uzaqlaşdırılmasına görkəmli qırğız yazıçısı Çingiz Aytmatov "Gün var əsrə bərabər" əsərindəki "manqurtlaşma" tezisi ilə özünün etirazını çatdırıb.

Akademik vurğulayıb ki, istehsalat mövzusunun şəxsiyyət amilini qabaqladığı həmin illərdə tarixi şəxsiyyətlərin, böyük sərkərdələrin, xalq qəhrəmanlarının obrazlarının yaradılmasının arxa plana keçirilməsi təşviq edilmişdir.

"Bu gün də bədii ədəbiyyatda və incəsənətdə cəmiyyətin inkişafı ilə əlaqədar elmi əsərlərdə problemlərə olan maraq şəxsiyyətlərə olan meyli üstələyir. Bütün bunlara görə humanitar və ictimai elmlər üzrə tədqiqatların istiqamətini nəzəri problemlərin araşdırılması ilə bərabər, həm də ədəbi-tarixi şəxsiyyətlərin tədqiqinə yönləndirilməsinə ehtiyac var", - deyən AMEA prezidenti institutlarda elmi istiqamətlərin müəyyən edilməsində bu məsələnin nəzərə alınmasının əhəmiyyətli olduğunu diqqətə çatdırıb.

Dissertasiya mövzularının tövsiyə edilməsində, elmi-populyar əsərlərin, monoqrafiyaların hazırlanmasında, fərdi elmi tədqiqatların təsdiq edilməsində hər iki istiqamət üzrə tədqiqatların aparılması fikri irəli sürülüb.

Rəyasət Heyətinin iclasında AMEA-da "Heydər Əliyev Ensiklopediyası"nın "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi tərəfindən hazırlanmış 820 sözü əhatə edən sözlüyü də müzakirə edilib.

Mövzu ilə əlaqədar çıxış edən akademik İsa Həbibbəyli bu günlərdə "Heydər Əliyev İli" çərçivəsində AMEA-nın Tədbirlər planının icra vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirənin keçirildiyini xatırladıb. Vurğulayıb ki, AMEA miqyasında "Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Tədbirlər Planı"na müvafiq olaraq 2023-2024-cü illər ərzində "Heydər Əliyev Ensiklopediyası"nın hazırlanması istiqamətində tədbirlər həyata keçirilir. Təqdim edilən sözlüyün əlavə və düzəlişlərlə təkmilləşdirilməsi üçün müvafiq komissiya yaradılıb.

İclasda, həmçinin AMEA-nın Qərbi Azərbaycan tədqiqatları üzrə Əlaqələndirmə şurasının Qərbi Azərbaycanla bağlı aparılan tədqiqatların əlaqələndirilməsi və sistemli koordinasiyasının təmin edilməsi məqsədi ilə hazırladığı Tədbirlər planı müzakirə edilərək təsdiqlənib.

"Elm günü" ilə əlaqədar AMEA-nın tədbirləri haqqında da müzakirələr aparılıb. "Elm günü"nə həsr olunmuş Tədbirlər planı təsdiqlənib. Həmçinin AMEA-nın "İstinadlarda rekord" diplomunun təsis olunması barədə qərar qəbul edilib, həmin istiqamətdə fərqlənən alimlərə "Elm günü"ndə verilməsi qərara alınıb.

Rəyasət Heyəti AMEA-nın Qafqazşünaslıq İnstitutunda struktur dəyişikliyi haqqında qərar qəbul edib. "AMEA-nın 2022-ci ildəki fəaliyyəti haqqında hesabat" məcmuəsinin nəşrə tövsiyə edilməsi və AMEA-nın 2022-ci ilə dair fəaliyyətinin yekunları haqqında 16 mart 2023-cü il tarixli növbəti Ümumi yığıncağında dinlənilməsi əsas məruzənin və məruzəyə əlavələrin mətnlərinin ayrıca kitab halında nəşr edilməsi qərara alınıb.

İclasda akademik Cəlal Əliyevin 95 illik və akademik Urxan Ələkbərovun 80 illik yubileyləri haqqında müvafiq qərarlar qəbul olunub, tədbirlər müəyyən edilib.

AMEA Rəyasət Heyətinin iclasındakı müzakirələrdə akademiklər Arif Həşimov, Dilqəm Tağıyev, Tofiq Nağıyev, İradə Hüseynova, Gövhər Baxşəliyeva, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə, professorlar Kərim Şükürov, İlham Məmmədzadə, eləcə də "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin direktor müavini Vaqif Bəhmənli və başqaları çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

AMEA ilə Özbəkistanın Dövlət İncəsənət və Mədəniyyət İnstitutu arasında əməkdaşlıq memorandumu imzalanıb

Fevralın 27-də AMEA-nın Rəyasət Heyətində Azərbaycan Milli Elmlər Akademiyası ilə Özbəkistanın Dövlət İncəsənət və Mədəniyyət İnstitutu arasında əməkdaşlıq haqqında memorandumun imzalanma mərasimi keçirilib.

Mərasimdə çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, Azərbaycan və Özbəkistan əlaqələri müasir dövrdə ölkələrimizin müstəqillik əldə etməsindən sonra daha da genişlənib, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü əsasında qardaş ölkə ilə rəsmi münasibətlər qurulub.

Son illərdə isə iki ölkə arasında əlaqələrin Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev tərəfindən yeni mərhələyə qaldırıldığını deyən akademik İsa Həbibbəyli dövlət başçılarımızın yaxın dostluq münasibətlərinin elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanlar açdığını bildirib.

AMEA-nın Özbəkistan Elmlər Akademiyası, Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti, Daşkənd Dövlət Şərqşünaslıq Universiteti və digər elmi və təhsil qurumları sıx əməkdaşlıq əlaqələrinin mövcud olduğunu deyən akademik İsa Həbibbəyli, həmçinin iki ölkənin alimlərinin birgə təşkilatçılığı ilə beynəlxalq konfransların təşkil edildiyini diqqətə çatdırıb. Həmçinin qeyd edib ki, Azərbaycan Əlişir Nəvainin ikinci vətənidir, ölkəmizdə ədibin yaradıcılığı istiqamətində geniş tədqiqatlar aparılıb, əsərlər meydana qoyulub, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində Əlişir Nəvai Mərkəzi fəaliyyət göstərir, Əlyazmalar İnstitutunda isə dahi şairin zəngin əlyazmaları qorunur. 6-7 fevral 2023-cü il tarixlərində isə ilk dəfə olaraq "Əlişir Nəvai və XXI əsr" mövzusunda ənənəvi keçirilən beynəlxalq konfrans ilk dəfə Özbəkistandan kənarda, Azərbaycan Milli Elmlər Akademiyasında baş tutub.

AMEA rəhbəri, eyni zamanda, Məhəmməd Baburun əsərlərinin azərbaycanlı alimlər tərəfindən tədqiq olunduğunu, iki xalqın böyük oğlu Maqsud Şeyxzadənin yaradıcılığına həsr olunmuş kitabların işıq üzü gördüyünü söyləyib, hazırda Akademiyada Azərbaycan-Özbəkistan elmi, ədəbi, mədəni əlaqələrinin genişləndirilməsi istiqamətində prosesin davam etdiyini bildirib.

Özbəkistanın Dövlət İncəsənət və Mədəniyyət İnstitutunun rektoru Eldor Şermanov isə çıxışında bildirib ki, mədəniyyət amili xalqların birləşməsində mühüm rol oynayır və rəhbərlik etdiyi qurum AMEA ilə əlaqələrin qurulması və genişləndirilməsinə xüsusi əhəmiyyət verir. Eldor Şermanov hazırda Dövlət İncəsənət və Mədəniyyət İnstitutunun nəzdində Azərbaycan Mədəniyyət Mərkəzinin fəaliyyət göstərdiyini diqqətə çatdırıb, əməkdaşlıq memorandumunun birgə konfransların təşkili, layihələrin həyata keçirilməsi və kadr hazırlığı işinə öz töhfəsini verəcəyini vurğulayıb.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun baş direktoru, müxbir üzv Ərtegin Salamzadə isə rəhbərlik etdiyi institutun Özbəkistanın bir sıra qurumları, o cümlədən Rəssamlıq Akademiyası ilə sıx əməkdaşlıq etdiyini, birgə konfranslar keçirdiklərini söyləyib, müəllifi olduğu "Akmal Nur. Boyakarlıq" kitabını qonaqlara hədiyyə edib.

Daha sonra AMEA ilə Özbəkistanın Dövlət İncəsənət və Mədəniyyət İnstitutu arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Sənədi AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli və sözügedən institutun rektoru Eldor Şermanov imzalayıblar.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib və qonaqlar AMEA-nın Rəyasət Heyətinin binası ilə tanış olublar.

Mərasimdə Özbəkistanın Dövlət İncəsənət və Mədəniyyət İnstitutunun elmi tədqiqat, innovasiya və elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin müdiri Marufjon Yuldaşev, institutun magistrantı Pirmuxammad Xolmaqmatov, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin inzibatçısı Yusif Məmmədov və AMEA-nın Rəyasət Heyəti aparatının Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini, yer elmləri üzrə fəlsəfə doktoru Aytən Hüseynova da iştirak ediblər.

AMEA-nın Türkiyəyə yardımı qardaş ölkənin mediasında geniş işıqlandırılıb

Azərbaycan Milli Elmlər Akademiyasının Türkiyədə baş vermiş zəlzələ nəticəsində zərər çəkmiş şəxslərə köməklik məqsədilə göstərdiyi yardım qardaş ölkənin mediasında geniş işıqlandırılıb.

Türkiyənin məşhur "Yeni Akit" qəzeti, eləcə də "oncevatan", "erzurumolay", "kastamonuguncel", "konyabakis", "yesiligdir", "guvengazetesi" və digər saytlarında AMEA-nın kollektivi tərəfindən Türkiyənin AFAD qurumuna maddi ianənin edildiyi və yardımların davam etdiriləcəyi oxucuların diqqətinə çatdırılıb.



AMEA-nın magistrlərinə diplomları təqdim olunub

Fevralın 28-də Azərbaycan Milli Elmlər Akademiyasının məzunu olan magistrlərə diplomları təqdim olunub.

Akademiya şəhərciyindəki Elektron akt zalında keçirilən təqdimat mərasimində çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli məzunları təbrik edib, magistrlərin Akademiyanın gəncləşməsi prosesinə və elmi məktəblərin davam etdirilməsi ənənəsinə öz töhfələrini verəcəklərinə əminliyini bildirib.

2023-cü ilin ölkəmizdə dövlət başçısı tərəfindən "Heydər Əliyev İli" elan olunduğunu xatırladan akademik, Ulu öndərin ideallarının Azərbaycanın gələcəyinə işıq saçdığını, Prezident İlham Əliyevin həmin idealları müasir dövrün reallıqları ilə zənginləşdirdiyini söyləyib.

"Prezident İlham Əliyev Vətən müharibəsilə xalqımıza Qarabağda tarixi Zəfər bəxş etdi. Bu gün isə Qərbi Azərbaycana qayıdış prosesi başlayıb, Azərbaycan dünya birliyində söz sahibi olan bir ölkəyə çevrilib. Siz belə bir ölkənin yeni qüvvələri, Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən Azərbaycanın yeni inkişafına öz töhfələrini verən gənclərsiniz. "Heydər Əliyev İli"ndə özünüzün gələcəyinizi müəyyən etmək üçün Azərbaycanın ümummilli, ümumdövlət vəzifələrini həyata keçirməkdə daim öndə olmalısınız", - deyə akademik İsa Həbibbəyli vurğulayıb.

Sonra Şamaxı Astrofizika Rəsədxanasının məzunu Aytac İsgəndərova, Genetik Ehtiyatlar İnstitutunun məzunu Rəhim Rəhimov, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun məzunu Şaxanım Bayrəməli, Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun məzunu Nəzakət Əliyeva çıxış edərək magistratura təhsili zamanı göstərilən diqqətə və qayğıya görə AMEA rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri, texnika elmləri üzrə fəlsəfə doktoru, dosent Hüseyn Hüseynov isə çıxışında Akademiyada magistratura təhsili ilə bağlı bir sıra statistik məlumatları diqqətə çatdırıb.

Sonda AMEA-da magistratura təhsilini başa vurmuş məzunlara magistr diplomları təqdim olunub.

AMEA-nın kollektivi Xocalı soyqırımı abidəsini ziyarət edib

Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, aparatın struktur bölmələrinin rəhbərləri, o cümlədən elmi müəssisə və təşkilatların nümayəndələri, gənc alimləri Xocalı soyqırımı abidəsini ziyarət ediblər.

Elmi ictimaiyyətin nümayəndələri abidənin önünə gül dəstələri düzüb, soyqırımı qurbanlarının əziz xatirələrini ehtiramla anıblar.

Akademik Rasim Əliquliyev:

"Elektron dövlət mühitində Azərbaycan dili ekosisteminin yaradılması müasir dövrün tələbidir"

AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev "Azərbaycan dilinin İKT problemləri, İKT-nin Azərbaycan dili problemləri" adlı respublika elmi-praktiki konfransında çıxışı zamanı elektron dövlət mühitində Azərbaycan dili ekosisteminin yaradılması məsələsinə də toxunub. Müxtəlif təşkilatlar, mütəxəssislər tərəfindən dillə bağlı ayrı-ayrı proqram məhsullarının hazırlandığını, lakin bu kimi məhsulların müxtəlif səbəblərdən geniş istifadə oluna bilmədiyini söyləyən alim əlavə edib ki, bu sistemləri e-dövlət sistemlərinə inteqrasiya etmək və ümumiyyətlə, Azərbaycan dilinin ekosistemini formalaşdırmaq lazımdır. Bunun da nəticəsində, virtual məkanda cəmiyyətə, vətəndaşlara, hər kəsə ödənişsiz, qeyri-məhdud olaraq Azərbaycan dili xidmətləri göstərilməlidir.

"Bu texnoloji innovasiyalar dövlətin dillə bağlı siyasətini, yəni rəsmi dövlət dili kimi istifadə edilməsini, qorunmasını və inkişaf etdirilməsini, həmçinin başqa dillərə tərcümə, transliterasiya münasibətlərinin qurulmasını təmin etməlidir", - deyən akademik dövlət tərəfindən bu layihələrə maliyyə və qrant dəstəyinin verilməsinin məqsədəuyğun olduğunu vurğulayıb.

Sonra akademik Rasim Əliquliyev onlayn platformada Azərbaycan dilinin ekosistemi və milli elektron dövlətin formalaşması konsepsiyasına dair arxitekturu konfrans iştirakçılarının diqqətinə çatdırıb. Alim e-dövlət və onun funksional komponentlərinin Azərbaycan dilinin tələblərinə uyğun qurulmasının vacibliyini önə çəkərək qeyd edib ki, dilimizin funksional komponentləri və servisləri rəqəmsal platformada elə yaradılmalıdır ki, e-dövlət mühitində həm bir-biri ilə qarşılıqlı əlaqədə olsun, həm də vətəndaşlara fasiləsiz, onlayn dil xidmətləri göstərə bilsin.

Akademikin fikrincə, ölkəmizdə Azərbaycan dilinin tədrisi və qiymətləndirilməsi üçün beynəlxalq standartlardan istifadə edilməli, vətəndaşların dil bilikləri beynəlxalq standartlar əsasında "yazma, oxuma, eşitmə və danışma" üzrə qiymətləndirilməli və fərdlərin şəxsi uçot-işlərində əks olunmalıdır.

AMEA-nın vitse-prezidenti bildirib ki, dövlətin dil siyasətinə dəstək məqsədilə e-dövlət mühitinin tərkib hissəsi kimi linqvistik demoqrafiya sistemi qurulmalı, müxtəlif aspektlər üzrə sosiolinqvistik təhlillər aparılmalı və zəruri təkliflər işlənilməlidir. Alim bu işləri apararkən etnik azlıqların da dillərinin tələblərinin nəzərə alınmasının, dövlətin multikultural siyasəti çərçivəsində onlar üçün müvafiq onlayn dil ekosistemlərinin yaradılmasının vacib olduğunu söyləyib. Həmçinin əlavə edib ki, dilin ekosistemləri açıq arxitektura malik olmalı, texnoloji çağırışlara adekvat olaraq daim təkmilləşdirilməli və inkişaf etdirilməlidir.

Çıxışının sonunda akademik Rasim Əliquliyev irəli sürülən mülahizələrin hər biri ilə bağlı İnformasiya Texnologiyaları İnstitutunun alim və mütəxəssisləri tərəfindən tədqiqatların aparıldığını, müəyyən elmi-praktiki nəticələrin əldə edildiyini diqqətə çatdırıb.

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Biomüxtəliflik və bioresurslar" mövzusunda elmi seminar

Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması Xidməti və Azərbaycan Botaniklər Cəmiyyəti İctimai Birliyinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Biomüxtəliflik və bioresurslar" mövzusunda elmi seminar keçirilib.

Tədbiri giriş sözü ilə açan institutun baş direktoru, b.e.d., professor Səyyarə İbadullayeva seminarın təşkilinin əsas məqsədi Ulu Öndərin Azərbaycan təbiətində qoyduğu irsi gənc nəsillərə çatdırmaqdan ibarət olduğunu vurğulayıb. Bildirib ki, ölkəmizin təbii zənginliklərinin dövlət səviyyəsində mühafizə edilməsi işi XX əsrin ikinci yarısından etibarən sistemli şəkildə həyata keçirilib. Hələ sovet hakimiyyəti illərində Azərbaycana rəhbərliyinin birinci dövründə görkəmli dövlət xadimi Heydər Əliyev respublikamızda təbii sərvətlərin qorunması, yaşıllaşdırma proqramlarının gerçəkləşdirilməsi sahəsində əhəmiyyətli addımlar atıb. Sevindirici haldır ki, Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 28 noyabr 2022-ci il tarixli Sərəncamının icrası ilə bağlı Azərbaycan botanik alimləri Azərbaycanın Qırmızı kitabının III nəşrini məhz Ulu Öndərin 100 illiyinə töhfə vermək arzusundadır. Alimin sözlərinə görə respublikamızda 1117 cinsə aid 4961 növ bitki müəyyən edilib. Ərazi erməni təcavüzünə məruz qaldığı illərdə qiymətli ağac növlərindən ibarət 986 hektar dövlət meşə sahəsi, 710 hektar keçmiş kolxoz meşələri, 560 hektar arid meşə sahələri törətdikləri yanğınlar və dağıntılar nəticəsində ciddi ziyan görüb. Bütün bunlar Qarabağa və Zəngəzura Böyük Qayıdışdan sonra Azərbaycan alimlərinin qarşısında mühüm vəzifələr qoyur.

Tədbirdə ekologiya və təbii sərvətlər nazirinin müavini, b.ü.f.d. Vüqar Kərimov çıxış edərək Biomüxtəlifliyin qorunması və davamlı istifadəsi XXI əsrin ən mühüm və qlobal problemlərindən olmaqla, dövlətin həllini vacib hesab etdiyi prioritet məsələlərdən biri olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən Elm və Təhsil nazirinin müşaviri Nicat Məmmədli bu tədbirin biomüxtəlifliyin qorunması və ekoloji problemlərin həlli istiqamətində qarşıya qoyulmuş bir sıra mühüm məsələlərin həllinə töhfələr verəcəyini bildirib.

AMEA-nın vitse-perzidenti, akademik İradə Hüseynova çıxışında seminarın işinə uğurlar arzulayıb və elmi tədqiqatların gələcək inkişafı üçün mühüm rol oynayacağını qeyd edib.

Millət vəkili Kamilə Əliyeva çıxış edərək belə aktual mövzuda keçirilən seminara görə təşkilatçılara təşəkkür edib. Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyasına toxunan millət vəkili qeyd edib ki, ekoloji terrora son qoyulması tələbi ilə keçirilən aksiya ərəfəsində belə tədbirlərin təşkili mühüm addımlardandır.

AMEA-nın müxbir üzvü Vaqif Novruzov Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən tədbirdə iştirakından məmnunluğunu bildirib. V.Novruzov görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyev ölkəsinə, onun təbiətinə bağlılığından danışarkən, qeyd edib ki, ekoloji siyasət Ümummilli Liderin fəaliyyətinin mühüm tərkib hissəsi olub.

Akademik Tariyel Talıbov Naxçıvan Muxtar Respublikasının biomüxtəlifliyinin zənginliyindən, ərazinin nadir və nəsliköəsilməkdə olan növlərinin bərpa edilməsindən söhbət açıb.

Botanika İnstitutunun icraçı direktoru, b.e.d., professor Şakir Qasımov ermənilərin Qarabağ və ətraf ərazilərdə törətdikləri ekosid haqqında ətraflı məlumat verib.

B.e.d Aydın Əsgərov 80-ci illərdə Qarabağ ərazisində aparılan çoxsaylı ekspedisiyalardan danışıb. İşğaldan azad edilmiş ərazilərdə ən azı 800-dən çox nadir ali bitki növünün ola biləcəyini deyən alim bu əraziləri biomüxtəlifliyin zənginliyinə görə Azərbaycanın ən zəngin regionlarından biri kimi səciyyələndirib.

B.e.d., professor Elman İsgəndər Qarabağın nadir və itmək təhlükəsində olan bitki növləri haqqında məruzə edib.

B.e.d., dosent Dilzarə Ağayeva "Göbələk patogenlər, invaziyalar və biotəhlükəsizlik" mövzusunda çıxış edərək bitkilərin təhlükəli göbələk patogeləri, epifitotiyalara səbəb olan növlər, onların tənzimlənməsində beynəlxalq təşkilatların rolu və mövcud sistemin elmi və əməli çətinliklərindən bəhs edib.

İki gün davam edən seminarda əlaqədar institutlardan olan elmlər doktorları, fəlsəfə doktorları, aspirant və magistrantlar müxtəlif mövzularda məruzə və posterlə çıxış ediblər. Mövzular ətrafında geniş müzakirələr aparılıb.

Sonda seminarın aktiv iştirakçılarına sertifikat təqdim olunub.

İctimai Elmlər Bölməsinin Elmi şurasının iclasında bir sıra məsələlər müzakirə olunub

AMEA-nın İctimai Elmlər Bölməsinin Elmi şurasının növbəti iclası keçirilib.

İclası AMEA-nın vitse-prezidenti v.i.e., İctimai Elmlər Bölməsinin Elmi şurasının sədri, akademik Gövhər Baxşəliyeva açaraq tədbirin gündəliyi barədə məlumat verib.

Akademik Gövhər Baxşəliyeva "Heydər Əliyev İli" çərçivəsində qəbul olunmuş AMEA-nın "Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Tədbirlər Planı"nda bölmənin müəssisələrinin üzərinə də konfransların təşkili və nəşrlərin çapı kimi vəzifələrin qoyulduğunu diqqətə çatdırıb və sözügedən işlərin yüksək səviyyədə keçirilməsi ilə bağlı tapşırıqlarını verib.

Sonra iclasda Qafqazşünaslıq İnstitutunda bir sıra struktur dəyişikliyi haqqında AMEA-nın Rəyasət Heyəti qarşısında vəsatət qaldırılması qərara alınıb.

Elmi şuranın üzvü, akademik Nailə Vəlixanlı struktur dəyişiklikləri ilə bağlı məsələyə münasibət bildirib və öz tövsiyələrini verib.

İclasda, həmçinin akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi şurasının tərkibində qismən dəyişiklik edilməsi məsələsi müzakirə edilib.

İnstitutun Şərq ölkələrinin tarixşünaslığı şöbəsinin müdiri, tarix elmləri doktoru Məryəm Seyidbəyli, Mərkəzi Asiya ölkələri şöbəsinin baş elmi işçisi, siyasi elmlər üzrə elmlər doktoru Adil Mirabdullayev, Din və ictimai fikir tarixi şöbəsinin böyük elmi işçisi Elnur Mustafayev və Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Namiq Məmmədov institutun Elmi şurasının tərkibinə daxil edilib.

İclasda, həmçinin Qafqazşünaslıq institutunun Elmi şurasının tərkibində qismən dəyişiklik edilməsi məsələsi müzakirə olunub.

Bundan əlavə, akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda bir sıra kadr dəyişikliyi edilməsi barədə iclas iştirakçılarına məlumat verilib.

İclasda Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun doktorantı Könül Vəliyevanın təhsilini davam etdirməsi üçün Türkiyəyə göndərilməsi barədə məsələ də müzakirə olunub.

Sonda akademik Gövhər Baxşəliyeva bir sıra məsələlərlə əlaqədar elmi-tədqiqat müəssisələrinin rəhbərlərinə tapşırıq və tövsiyələrini verib.

Milli-mənəvi dəyərlərimizin qoruyucusu

Biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi, milli ənənələr əsasında tərbiyə edilsinlər.

Heydər Əliyev

Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli mənəvi dəyərlər sisteminə malikdir. Bu milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir.

Ümummilli Lider Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi əbədilik qazanmışdır.

Müasir tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması, xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsidir.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanda rəhbərliyə gəldiyi gündən milli-mənəvi dəyərləri diqqət mərkəzində saxladı, milli ideologiyanın ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirdi. Ulu Öndər qeyd edirdi: "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Heydər Əliyev azərbaycançılığı milli ideologiya kimi irəli sürür, dövlətçilik siyasətinin proqramı kimi dəyərləndirirdi.

Müasirlik, yenilik və eyni zamanda, milli dəyərlərə, milli köklərə bağlılıq - bugünkü Azərbaycanı təsvir edən bu ideya artıq hamıya bəllidir. Azərbaycan xalqı daim öz milli köklərinə bağlı xalq olmuşdur və bizim gələcək uğurlarımız da məhz bu amillərlə bağlıdır. Biz tarixi, zəngin mədəni irsimizin əsasında müasir, güclü Azərbaycan qururuq.

Bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində dayanan Ümummilli Liderin bu siyasəti bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan kimi spesifik coğrafi ərazidə, mədəniyyətlərin kəsişməsində yerləşən bir ölkə üçün qloballaşma şəraitində milli kimliyin, mənəvi dəyərlərin qorunub saxlanılması bir vəzifə kimi dövlət və cəmiyyət qarşısında durur.

Ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması, təbliği, dünyaya təqdimatı yönündə sistemli tədbirlər həyata keçirilir. Milli bayramların, tarixi günlərin yüksək səviyyədə qeyd olunması, mədəni irsimizin beynəlxalq təşkilatlarda tanıdılması bu qəbildəndir. Ayrıca, mənəvi dünyamızda mühüm rola malik olan din sahəsində dövlət siyasəti yeni keyfiyyət mərhələsinə qədəm qoyub.

Mənəvi dəyərlərin qorunmasında, təbliğində aparıcı missiya kütləvi informasiya vasitələrinin üzərinə düşür. Daha böyük arealı, daha çox insanı əhatə edən bilən medianın bu gün Azərbaycan milli-mənəvi dəyərlərinin təbliği yönündəki fəaliyyəti məsuliyyətli olduğu üçün mənəvi dəyərlərin təbliğinin sistemli şəkildə, "Milli yaddaş" modelinə söykənərək aparılması mütləqdir.

Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

"Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik", - deyən Ümummilli Liderin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir.

Bahar MƏMMƏDOVA
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun əməkdaşı

Ulu Öndər Heydər Əliyevin mənəvi dəyərlər haqqında müdrik fikirləri

Ulu Öndər Heydər Əliyev işıqlı təfəkkür, çevik düşüncə, müdrik zəka sahibi idi. Dahi Liderin müdrik fikirləri onun müxtəlif məsələlərə həsr olunmuş rəsmi çıxışlarından, müsahibələrindən, məktublarından seçmələrdir. Bu fikirlər Ulu Öndərin həyat təcrübəsindən xəbər verməklə yanaşı, müasir Azərbaycanın gerçəkliyini, xalqımızın mədəni-mənəvi və intellektual həyatını əks etdirir. Yığcamlığı, dəqiqliyi, aydınlığı ilə seçilən bu fikirlər konkret dövrdə, konkret hadisələrlə bağlı söylənilsə də, ümummilli, ümumbəşəri məna kəsb etməkdədir.

- Cəmiyyətimizi Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı, milli ənənələri, prinsipləri əsasında tərbiyə etmək lazımdır.
- Azərbaycanın müstəqil yaşaması, Azərbaycanın milli azadlığı, xalqımızın öz taleyinin sahibi olması, özünün milli-mənəvi, dini dəyərlərinə sahib olması tarixi bir hadisədir.
- Bizim mənəvi, islami dəyərlərimiz nəsillərdən-nəsillərə keçib, yaşayıb, gəlib bu günlərə çatıb. Bunlar bu gün də xalqımızın, millətimizin ən böyük mənəvi sərvətidir.
- Yaşayırıq ona görə ki, torpağımıza, dinimizə, milli ənənələrimizə sadiq olaq. Bu yolda hamımız bir olmalıyıq.
- Hamı bizim milli ideologiyamızın, milli əxlaqımızın, mənəviyyatımızın prinsipləri əsasında yaşamalı və işləməlidir.
- Təcrübə də göstərir ki, məsuliyyətlə işləyən adam, öz məsuliyyətini dərk edən adam həm xalqına, ölkəsinə mənfəət verir, həm də özünə, birinci növbədə mənəvi cəhətdən çox böyük mənfəət gətirir.
- Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir.
- İnsanlar özlərini, dövlətimizi, mənəviyyatımızı qorumalıdırlar. Biz gərək təmizlik, mənəvi saflıq uğrunda mübarizə aparaq. Yalnız və yalnız bu yolla cəmiyyətimizi günü-gündən sağlamlaşdıra, inkişaf etdirə və müstəqil dövlətimizi irəliyə apara bilərik.
- Heç bir sərvət, para mənəviyyatı əvəz edə bilməz.
- Azərbaycan xalqını əsrlər boyu yaşadan, onu böyük bəlalardan, fəlakətlərdən qurtaran Azərbaycanın əsrlər boyu yaratdığı mənəvi dəyərlər olmuşdur.
- Mənəvi paklıq, saflıq həmişə insanları ucaldıbdır, həmişə insanlara hörmət gətiribdir.
- Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır.
- İnsanların, dövlətin, cəmiyyətin fiziki, ruhi cəhətdən müəyyən məhrumiyyətlərə uğramış adamlara qayğısı həmişə yüksək səviyyədə olmalıdır.
- Xalqımızın mənəviyyatına, elminə, qüdrətinə, zəkasına İslam dininin böyük təsiri olmuşdur. Milli ənənələrimiz, mədəniyyətimiz bir çox hallarda İslam dini vasitəsilə nəsildən-nəslə keçib, indi böyük milli sərvətimiz kimi bugünkü nəsillərə çatmışdır.
- İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq, həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir.
- Azərbaycan torpağı əsrlər boyu müxtəlif etiqadlara tapınan insanlar üçün doğma vətən olmuşdur.
- Azərbaycan dövləti müstəqilliyini əldə edəndən sonra xalqımızın mənəvi dəyərləri canlanıb, bərpa edilibdir, hər bir azərbaycanlı müsəlmanın həyat tərzinin əsas qanunu olubdur. Bu, bizim üçün böyük bir tarixi hadisədir və biz bunu yüksək qiymətləndirməliyik.

Naxçıvan Bölməsində "Heydər Əliyev ideyaları və müasir dövr" mövzusunda elmi konfrans keçiriləcək

AMEA-nın Naxçıvan Bölməsinin Rəyasət Heyətinin növbəti iclası keçirilib. İclası açan Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yığıncaq iştirakçılarını gündəlikdəki məsələlərlə tanış edib.

Qardaş Türkiyədə fevral ayının 6-da və sonrakı günlərdə baş vermiş zəlzələlər nəticəsində onminlərlə insanın həyatını itirdiyini, çoxsaylı yaralıların olduğunu diqqətə çatdıran bölmə rəhbəri qeyd edib ki, bu müddət ərzində Azərbaycan dövləti, Azərbaycan xalqı türk qardaşlarına dəstək olub.

Naxçıvan Təbii Ehtiyatlar İnstitutunun Seysmoloji xidmət şöbəsinin müdiri İlkin Vəlibəyov iclasda "Türkiyə Respublikasında baş vermiş zəlzələlər və regionun seysmik rejimi" mövzusunda elmi məruzə edib. Baş vermiş zəlzələlərin mahiyyətinin anlaşılması, eləcə də başqa sahələr üzrə ixtisaslaşmış elm adamlarının ölkəmizin seysmikliyi ilə bağlı daha dərindən məlumatlandırılması məqsədi daşıyan məruzədə İlkin Vəlibəyov Sakit okean və Alp-Himalay seysmik qurşaqları, fay xətləri, zəlzələlərin baş vermə səbəbləri barədə ətraflı məlumat verib. Türkiyədə baş verən zəlzələlər nəticəsində litosfer tavalarında baş verən yerdəyişmələr məruzənin aparıcı mövzusu olub.

Tədqiqatçı slayd vasitəsilə müxtəlif illərdə tərtib olunan seysmoloji xəritələri nümayiş etdirərək ölkəmizin əsas seysmik zonaları barədə də iclas iştirakçılarını məlumatlandırıb, maraqlı təhlillər aparıb.

İclasda Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağına, həmçinin AMEA-nın Naxçıvan Bölməsində 2023-cü ildə keçiriləcək beynəlxalq və respublika səviyyəli elmi konfranslara hazırlığın vəziyyəti müzakirə olunub.

Akademik İsmayıl Hacıyev qeyd edib ki, 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar olaraq AMEA Naxçıvan Bölməsində "Heydər Əliyev ideyaları və müasir dövr" mövzusunda respublika elmi konfransının keçirilməsi, "Elmi əsərlər" jurnalının xüsusi nömrəsinin Ulu Öndər Heydər Əliyevə həsr olunması, "Heydər Əliyev. Taleyi və siyasi fəaliyyəti" kitabının nəşri nəzərdə tutulub. Bölmə sədri vurğulayıb ki, Naxçıvan Bölməsində təşkil olunacaq respublika elmi konfransından əlavə bölmənin elmi-tədqiqat institutları da ayrı-ayrılıqda elmi konfranslar keçirməlidirlər.

Daha sonra Naxçıvan Bölməsinin Gənc Alim və Mütəxəssislər Şurasının yeni tərkibi seçilərək təsdiq edilib. Rəyasət Heyəti gündəlikdəki digər məsələləri müzakirə edib, müvafiq qərarlar qəbul edib.

Heydər Əliyev ideyalarının zəfər yürüşü

AMEA-nın Şəki Regional Elmi Mərkəzinin və Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Şəki filialının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar "Heydər Əliyev ideyalarının zəfər yürüşü" adlı elmi-praktiki konfrans keçirilib.

Tədbiri giriş sözü ilə ADPU-nun Şəki filialının direktoru, riyaziyyat üzrə elmlər doktoru, dosent Rafiq Rəsulov açaraq Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə respublikamızda siyasi, sosial-iqtisadi və mədəni sahələrdə həyata keçirilən islahatlardan, dahi rəhbərin Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması və inkişafındakı əvəzsiz xidmətlərindən bəhs edib. Bildirib ki, Ümummilli Liderin həyat yolu, siyasi fəaliyyəti, dövlət idarəçiliyindəki zəngin təcrübəsi yüksək insani-əxlaqi keyfiyyətləri özündə təcəssüm etdirən nümunəvi məktəbdir.

Sonra çıxış edən Şəki Regional Elmi Mərkəzinin direktoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Yusif Şükürlü "Heydər Əliyev İli" çərçivəsində Elmi Mərkəz tərəfindən xüsusi tədbirlər planının hazırlandığını və silsilə tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

Konfransda universitet filialının baş müəllimi Tahir Məhərrəmovun, filialın müəllimi Kəmalə Ramazanovanın, baş müəllim Rasimə Bəkirovanın, Şəki Regional Elmi Mərkəzinin elmi işçisi Tural Adışirinovun, Mərkəzin əməkdaşları Murad Qəhrəmanovun və Elvin Qarayevin Ulu Öndərə həsr olunan məruzələri dinlənilib.

Çıxış edənlər Heydər Əliyevin mənalı ömür yolundan, görkəmli şəxsiyyətin Azərbaycanın inkişafı və tərəqqisi naminə misilsiz xidmətlərindən danışıblar. Bildirilib ki, tariximizin yetirdiyi ən böyük şəxsiyyətlərdən olan Ümummilli Liderin tariximizdə oynadığı rol illər keçdikcə daha dərindən dərk edilir.

ELM

Etnogenez: xalqımızın təşəkkül tarixinin mərhələləri

Son 60 il ərzində Azərbaycan Respublikası ərazisində aparılmış kompleks elmi tədqiqatlar nəticəsində xalqımızın keçdiyi tarixi inkişaf mərhələlərinə aid zəngin arxeoloji, paleontoloji, paleoantropoloji, paleogeoloji məmulatlar əldə olunmuşdur. Məhz bu elmi tapıntılar əsasında xalqımızın uzaq keçmişi və etnogenez probleminin yüksək elmi səviyyədə tədqiq olunmasına elmi zəmin yaranmışdır. Azərbaycanın əbədi, əzəli torpağı olan Qarabağda qeydə alınmış Azıx, Tağlar, Şuşa, Günəştəpə, Qaraköpəktəpə, Şomutəpə, Kültəpə, Tuğtəpə, Leylatəpə və digər arxeoloji abidələr xalqımızın ulu sakinləri haqqında ən etibarlı mənbələrə malik olan abidələrdir. Məhz həmin düşərgələrdən tapılmış maddi-mədəniyyət qalıqları əsasında xalqımızın etnogenez-təşəkkül tarixinin ayrı-ayrı mərhələlərini tədqiq etmək, dünya ictimaiyyətinə və xalqımıza çatdırmaq günün ən aktual vəzifəsi olaraq qalmaqdadır.

Azərbaycanın Qarabağ, Naxçıvan, cənub və şimal ərazilərində də aparılan arxeoloji tədqiqat işləri nəticəsində bəşər tarixinin keçdiyi inkişaf mərhələlərini tədqiq etmək üçün arxeoloji, paleontoloji və paleoantropoloji elmi tapıntılar əldə olunmuşdur. Bu gün dünya arxeologiya, paleoantropologiya və digər elm sahələrinin əldə etdiyi elmi tapıntılar əsasında xalqımızın formalaşma prosesini tədqiq etmək olar. Arxeoloji və paleoantropoloji tapıntılara əsaslanmadan xalqın mənşəyi haqqında düzgün elmi fikirlər söyləmək qeyri mümkündür. Məhz bunun nəticəsidir ki, bu gün bəzi Azərbaycan və əcnəbi tarixçilər arasında yanlış fikirlər mövcuddur. Və hətta 200 ilə yaxındır ki, "erməni mafiyası"-na xidmət edən qüvvələr tariximizi saxtalaşdırmaqla məşğuldurlar. Ona görə də bu gün son 60 ildə əldə olunmuş, məktəb keçmiş və savadlı alimlərin bilikləri əsasında xalqımızın etnogenez problemi haqqında yanlış məlumatları alt-üst etmək olar.

Hələ 2009-cu ildə akademik Tofiq Köçərli yazırdı ki, "erməni mafiyası"-na xidmət edən qüvvələr Qarabağ və xalqımıza qarşı soyqırımları haqqında 26 mindən artıq kitab, biz azərbaycanlılar və bütün türk dünyası isə cəmi 130 kitab çap etmişik. Ona görə də belə hesab edirəm ki, keçmiş ulu tarixi bilib ondan ibrət dərsi götürməliyik. Savadlı və məktəb keçmiş alimlərin sayı çox olmalıdır. Təhsilimizi dünya səviyyəsinə qaldırmaq günün ən vacib məsələsi olaraq qalmaqdadır. Məhz bunun nəticəsidir ki, bəzi tarixçilər xalqımızın mənşəyi haqqında yanlış fikirdədirlər.

Azərbaycan xalqının yaranması, inkişaf etməsi və formalaşması mərhələlərini öyrənərkən hazırda arxeologiya, paleontologiya, paleoantropologiya, antropologiya və digər elmlərin nailiyyətlərinə əsaslanıb tədqiqat işləri aparmaq əsas vəzifə olaraq qalmaqdadır. İstənilən yazılı mənbələri saxtalaşdırmaq mümkündürsə arxeoloji, paleontoloji və paleoantropoloji mənbələri saxtalaşdırmaq qeyri-mümkündür. Məhz ona görə də xalqın təşəkkül tarixinin mərhələlərini araşdırarkən həmin mənbələr savadlı şəkildə tədqiq olunmalıdır.

1975-1985-ci illərdə Azıx və Tağlar paleolit düşərgələrində aparılan kompleks tədqiqatlar zamanı tapılmış maddi-mədəniyyət qalıqları əsasında ulu sakinlərimizin əmək alətləri hazırlaması, inkişaf etməsi, formalaşması mərhələləri və eyni zamanda miqrasiya prosesləri tədqiq olunmuşdur.

2001-2005-ci illərdə Beynəlxalq İNTAS-2000 proqramı üzrə aparılmış kompleks araşdırmalar zamanı Qarabağın Quruçay və Köndələnçay sahillərində və eyni zamanda Azıx və Tağlar düşərgələrində ibtidai insanların inkişaf edib müasir insanlara çevrilməsi prosesi Əsədulla Cəfərovun rəhbərliyi altında bir qrup Avropa alimləri tərəfindən tədqiq olunmuşdur. Aparılan elmi tədqiqatlar zamanı məlum olmuşdur ki, Azıx paleolit düşərgəsində ibtidai insanlar 2,5 milyon il bundan əvvəllərdən məskunlaşmağa başlamışlar. Azərbaycan alimlərindən M.M.Hüseynov, D.V.Hacıyev, Ə.Q.Cəfərov, Ə.V.Məmmədov, N.Ş.Şirinov, Avropa alimlərindən Anri dö Lümley, Maria Antuanetta dö Lümley, Karbonelli, Sala, V.P.Boriskovski, Vekua, David Lordkipanidze və digərlərinin tədqiqatları nəticəsində Azıx

düşərgəsində arxeologiyanın quruçay, qədim aşel, orta aşel, üst aşel, mustye, üst paleolit dövrlərinə aid maddi-mədəniyyət qalıqları tədqiq olunmuşdur. Təsadüfi deyildir ki, dünyanın savadlı arxeoloq, paleoantropoloq və digər elm sahələrinin mütəxəssisləri Azıx və Tağlardan tapılmış maddi-mədəniyyət qalıqlarını bəşəriyyətin inkişafının xarakterik cəhətlərinin tədqiqində ən mühüm mənbə hesab edirdilər. Hələ 1981-ci ildə Moskvada SSRİ və Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətlərində Azıx və Tağlar düşərgələrində aparılmış tədqiqatlar əsasında tapılmış maddi-mədəniyyət qalıqları haqqında xüsusi elmi məruzə dinlənilmişdir. 1981-1985-ci illərdə Fransanın Paris şəhərində olan "İnsan" muzeyində Azıx və Tağlar düşərgələrindən tapılmış maddi-mədəniyyət qalıqları Avropanın "İlk sakinləri" adlı sərgidə nümayiş etdirilmişdir. 1998-ci ildə Parisdə nəşr olunmuş "İlk insanlar" adlı əsər professor Anri dö Lümley tərəfindən çap olunmuşdur. Həmin kitabda Azıx haqqında geniş məlumat verilmişdir. 1982-ci ildə Çexoslovakiyada professor Yan Yelinek "Antropologiya" jurnalında dünyanın müxtəlif ölkələrindən tapılmış qədim insan qalıqlarının klassifikasiyasını göstərmişdir. Orada Azıxdan tapılmış çənə də geniş şərh olunmuşdur.

1980-ci ildə Ümummilli Lider Heydər Əliyevin tapşırığı əsasında "Azıx mağarası" adlı kitabça Azərbaycan, rus, fransız və ingilis dillərində çap olunaraq dünyanın müxtəlif ölkələrinin alimlərinə göndərilmişdir.

2001-2003-cü illərdə bu sətirlərin müəllifi Fransanın Paris, Nis və Totavel şəhərlərində Azıx, Tağlar və Qazma düşərgələrinin maddi-mədəniyyət qalıqları haqqında elmi məruzələrlə çıxış etmişdir. Avropa alimləri Əsədulla Cəfərovun elmi məruzəsinə yüksək qiymət vermiş və aparılan tədqiqatların yüksək səviyyədə olduğunu bildirmişlər.

Son 60 ildə Azərbaycan arxeologiyası, xüsusilə 1971-ci il martın 24-də Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyəti Daş dövrü arxeologiyasının yaradılması haqqında qərar qəbul etmişdir. Bu qərardan sonra Azərbaycanın daş dövrü abidələrinin tədqiq olunmasına geniş şərait yarandı. Ötən müddət ərzində Qarabağın Azıx, Tağlar, Şuşa, Naxçıvanın Qazma, Qazaxın Daşsalahlı, Damcılı, Lerikin Zuvandçay və Buzeyr düşərgələrinin maddi-mədəniyyət qalıqlarına aid Əsədulla Cəfərovun 9 kitabı, 145 elmi məqaləsi və 100-dən artıq elmi populyar məqalələri çap olunmuşdur. Bundan başqa 1982-ci ilin noyabrından bu günə qədər Əsədulla Cəfərov respublikanın televiziya kanallarında, radiosunda Azərbaycanın qədim insan düşərgələri haqqında çıxışlarına baxmayaraq son 2 ildə bəzi televiziya kanallarında, internet saytlarında və bəzi qəzetlərdə Qarabağ, o cümlədən Azıx, Tağlar və digər qədim insan məskənləri haqqında bisavad, elmdən kənar fikirlər söylənilir və yazılır. Nəticədə xalqımızın ulu tarixi haqqında yanlış fikirlərin əmələ gəlməsinə zəmin yaranır. Bu gün bu olduqca təhlükəlidir. Çünki dövrü mətbuat, internet səhifələri dünyanın üzünə açıqdır ona görə də, nəinki Qarabağın, Azıx düşərgəsinin, Tağlar, Şuşa və digər abidələr haqqında yazarkən və yaxud fikir söyləyərkən yüz ölçüb bir biçmək lazımdır. Xalqımız və tariximiz müqəddəsdir. Bu müqəddəsliyə heç kəsin mənəvi haqqı yoxdur ki, ləkə gətirsin.

Xalqımızın yaranması, inkişaf etməsi və formalaşması prosesini tədqiq edərkən məncə aşağıda qeyd olunan tarixi dövrlərin inkişaf xüsusiyyətlərinin öyrənilməsi vacibdir. Xüsusilə xalqımızın etnogenez prosesinin tədqiqində aşağıda qeyd etdiyim mərhələlərin inkişaf xüsusiyyətlərinin öyrənilməsi ən aktual problem olaraq qalmaqdadır:

1. Qədim daş dövrünün inkişaf xüsusiyyətləri;
2. Orta və yeni daş dövründə ortaya çıxan qəbilə və tayfalar;
3. Tunc dövrünün maddi-mədəniyyət qalıqları və onların xüsusiyyətləri;
4. İlk sinifli cəmiyyətin və dövlətin meydana çıxması.

Azərbaycan Respublikası ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı bəşəriyyətin ilkin çağlarına dair zəngin maddi-mədəniyyət qalıqları tapılmışdır. Xalqımızın etnogenez prosesinin tədqiqində mustye düşərgələrindən və üst paleolit abidələrindən tapılmış arxeoloji və paleoantropoloji tapıntıların mühüm elmi əhəmiyyəti vardır. Çünki mustye mədəniyyətinin sonu, üst paleolit mədəniyyətinin əvvəllərində ayrı-ayrı irqlər meydana çıxmışdır. Əgər Azıx paleolit düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı tapılmış maddi-mədəniyyət qalıqları əsasında ölkəmizin ərazisində ibtidai insanların uzun müddət ərzində məskunlaşıb yaşadıqlarını göstərdisə, Tağlar paleolit düşərgəsində aparılan arxeoloji tədqiqatlar isə ölkəmizin ərazisində neandertal tipli insanların inkişaf edib homo-sapiens- sapiens yəni, kamil insanlara keçmə prosesini müəyyən etdi.

Orta daş dövründə (mezolit) təsərrüfatın mənimsənilməsindən istehsala keçid forması daha xarakterikdir. Paleolit dövründən fərqli olaraq mezolit dövründə yaşayan insanlar onları əhatə edən təbiət məhsullarından daha yaxşı istifadə edirdilər. Azərbaycanın mezolit abidələrində aparılan elmi araşdırmalar bu dövrdə ovçuluq və balıqçılıq arasında ixtisaslaşma getdiyi müşahidə edir.

Neolit dövrünün başlanması ilə əlaqədar olaraq əmək alətlərində xüsusilə onların hazırlanma texnikasında dəyişikliklər baş verir. Daşdan hazırlanmış baltalar, kərkilər son dərəcə geniş yayılmağa başlayır. Bəşər tarixində ilk dəfə olaraq neolit dövründə gil qab istehsalına başlanır. Bu dövrdə yaşayan tayfaların iqtisadiyyatında əsas yeri ovçuluq və balıqçılıq tutur.

Neolit dövrünü eneolit və tunc dövrü əvəz etdikdən sonra bəşər tarixində əkinçiliyin yeni yüksək mərhələyə daxil olmasına zəmin yaradır. Nəticədə yeni-yeni arxeoloji mədəniyyətlərin yaranması baş verdi.

Son tunc və ilk dəmir dövrünün əvvəllərində ilk sinifli cəmiyyət və dövlət meydana çıxmışdır.

Bütün yuxarıda qeyd olunan tarixin inkişaf mərhələlərini bilmədən xalqın mənşəyi haqqında düzgün fikir söyləmək olmaz. Çünki qeydə alınmış arxeoloji mədəniyyətlərdə varislik ənənələri hökm sürür.

Azərbaycan Respublikası ərazisində bəşər tarixinin ilk vaxtlarından meydana çıxıb formalaşan insanların yaratdıqları maddi-mədəniyyət nümunələri burada yaşayıb yaradan insanların yerli olduğunu və bu ərazidə formalaşdıqlarını söyləməyə əsas verir.

1972-ci ildə Qobustanın Firuz düşərgəsindən tapılmış mezolit dövrünə aid insan kəllələrinin antropoloji tədqiqi onların müasir Azərbaycan türklərinin ulu babaları olduğunu söyləməyə zəmin yaratmışdır. Antropoloq Rəbiyyə Qasımovanın apardığı tədqiqatlar sonuncu fikrimizi elmi əsaslarla təsdiq etmişdir.

Hazırda əsas vəzifə Azərbaycan türklərinin etnik tarixini müasir elmi nailiyyətlər əsasında tədqiq etməkdən ibarətdir. Bunun üçün kompleks şəkildə arxeoloji, paleoantropoloji, antropoloji və tarixi mənbələri tədqiq edib öyrənmək lazımdır. Ancaq kompleks elmi tədqiqatlar əsasında xalqın mənşəyini öyrənmək və bəzi tarixçilərin və "erməni mafiya"-sına xidmət edən qüvvələrin bu barədə elmi əsası olmayan fikirlərini təkzib etmək olar.

Azərbaycan alimlərinin son illərdəki arxeologiya, paleoantropologiya, antropologiya, etnoqrafiya, dilçilik və s. sahələrdə əldə etdiyi elmi nailiyyətlər buna gözəl şərait yaratmışdır.

Əsədulla CƏFƏROV
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor

"Horizon Avropa" proqramı üzrə təlim keçirilib

AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Avropa Komissiyasının "Horizon Avropa" Proqramı üzrə layihə təkliflərinin yazılmasına dair üçgünlük təlim keçirilib.

Düşərgə Avropa Komissiyası (AK) və AMEA tərəfindən Azərbaycan tədqiqatçılarının, dövlət və özəl sektorlardan olan mütəxəssislərin "Horizon Avropa" Proqramında uğurlu iştirakının təmin edilməsi məqsədilə təşkil edilib. Təlimlər Avropa İttifaqı tərəfindən dəstəklənir və Avstriyadan olan ekspert Qorazd Veis (Gorazd Weiss) və italiyalı eksert Bruno Mourenza (Bruno Mourenza) tərəfindən aparılıb. Həmçinin "Zoom" platforması üzərindən AK-dan olan digər mütəxəssislər onlayn formatda qoşularaq fikir mübadiləsində iştirak ediblər.

Təlimin ilk günündə dövlət və özəl sektorlardan olan 250-dən çox müraciətçi arasından seçilmiş 30 mütəxəssis iştirak edib. İştirakçılar Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinin Nüvə Təbabət Mərkəzi, Azərbaycan İlahiyyat İnstitutu, Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli Aerokosmik Agentliyinin Elmi-Tədqiqat Aerokosmik İnformatika İnstitutu, AMEA-nın Respublika Seysmoloji Xidmət Mərkəzi, Ədəbiyyat, Fəlsəfə və Sosiologiya, Tarix institutları, Elm və Təhsil Nazirliyinin Genetik Ehtiyatlar, Molekulyar Biologiya və Biotexnologiyalar, Fizika, İqtisadiyyat, Geologiya və Geofizika, Neft və Qaz, Radiasiya Problemləri institutları, ADA Universiteti, Bakı Dövlət Universiteti, Xəzər Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət İqtisadiyyat Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Mühəndislik Universiteti və Mingəçevir Dövlət Universitetinin əməkdaşlarıdır.

Tədbirdə giriş sözü ilə çıxış edən AMEA-nın Rəyasət Heyəti aparatının Beynəlxalq əlaqələr şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Əlirzayeva təlimin "Horizon Avropa" Proqramı haqqında daha dolğun məlumat əldə etməyə geniş imkanlar açdığını diqqətə çatdırıb. Şöbə müdiri ölkəmizin elmi potensialının dünyada tanıdılmasına şərait yaradan "Horizon Avropa" Proqramı kimi nüfuzlu layihələrdə alimlərimizi yaxından iştirak etməyə dəvət edib.

Təlimlərdə "Horizon Avropa" Proqramının 2023-2024-cü illər üçün iş proqramı, çağırışların müəyyənləşdirilməsi, layihə təkliflərinin yazılma qaydası, qiymətləndirmə kriteriyaları barədə məlumatlar iştirakçıların diqqətinə çatdırılıb, nəzəri və praktik dərslər keçirilib, uğurlu təcrübə təqdim olunub.

Daha sonra müəyyən edilmiş mövzular üzrə qrup işləri icra edilib, 30 nəfərə sertifikatlar verilib.

Növbəti gündə "Horizon Avropa" proqramı üzrə Milli Əlaqələndirici Şəxslər üçün təlim keçirilib.

Tədbirdə çıxış edən AMEA-nın Rəyasət Heyəti aparatının Beynəlxalq əlaqələr şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Əlirzayeva son illər Milli Əlaqələndirici Şəxslər Şəbəkəsi (MƏŞŞ) üzvlərinin fəaliyyəti nəticəsində Azərbaycanın alim və mütəxəssislərinin "Horizon" proqramlarına marağın artdığını qeyd edib.

Milli Əlaqələndirici Şəxslər Şəbəkəsi 25 mütəxəssisdən təşkil edilib. AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyev Milli Əlaqələndirici Şəxslər Şəbəkəsinin koordinatorudur.

Avropa İttifaqı tərəfindən dəstəklənən təlim Avstriyadan olan ekspert Qorazd Veis (Gorazd Weiss) və italiyalı ekspert Bruno Mourenza (Bruno Mourenza) tərəfindən aparılıb.

Təlim "Çərçivə Proqramının təşviqi üçün Milli Əlaqələndirici Şəxslərin fəaliyyətlərinə dair praktiki məsləhətlər", "Milli Əlaqələndirici Şəxslərin əsas funksiyaları: cari tədbirlər və imkanlar - Qrup işi", eləcə də "Azərbaycanın maraqlı tərəfləri üçün "Horizon Avropa" proqramı çağırışlarının seçilməsi və bu barədə məlumatlandırmanın aparılması" bölmələri üzrə keçirilib.

"Maraqların toqquşması" mövzusunun müzakirəsi üçün Avropa Komissiyasının əməkdaşı Niccolo Querci Brüsseldən onlayn olaraq qoşulub.

İştirakçılar layihələrin hazırlanması üçün elmi yenilik, metod və yanaşmalar, iş bölgüsü, gözlənilən nəticələr və s. üzrə ətraflı məlumatlandırılıblar. Təlim iştirakçıları 3 işçi qrupu şəklində "Horizon Avropa" proqramının müxtəlif istiqamətlərini əhatə edən mövzular üzrə işlər icra ediblər.

Təlimdə Milli Əlaqələndirici Şəxslər çıxış edərək layihə və təkliflərini səsləndiriblər.

CƏNUBİ AZƏRBAYCAN GÜNDƏMİ

Xiyabani hərəkatı elmi ədəbiyyatda

Azərbaycanın azadlıq, müstəqillik və dövlətçilik tarixində yer tutmuş şəxsiyyətlərdən biri də Şeyx Məhəmməd Xiyabanidir. Bu sahədə həm Güney, həm də Quzey Azərbaycanda müəyyən tədqiqatlar aparılıb, yazılıb ortaya çıxsa da, tarixşünaslıqda Xiyabani və onun adı ilə bağlı olan hərəkatın dolğunluqla və ətraflı verilməsi demək deyildir. Bu tərəfdə sovet hakimiyyətinin mövcud olması, İranda Pəhləvi rejiminin şovinist siyasəti, bir sıra başqa mövzular kimi Xiyabani mövzusunun da istənilən səviyyədə tədqiqinə və oxuculara çatdırılmasına imkan verilməmişdi. Buna baxmayaraq Arazın hər iki sahilində yazıb-yaradan tarixçi alimlərimiz ciddi təzyiqlər şəraitində olsa da, müəyyən əsərlər qələmə almış, tədqiqatlat aparmışlar.

Azərbaycan tarixşünaslığı və elmi ədəbiyyatında. 1945-1946-cı illərdə Güney Azərbaycanda olmuş, sovet ordusu sıralarında xidmət etmiş məşhur jurnalist, tədqiqatçı-alim Q.Məmmədlinin 1949-cu ildə Bakıda "Azərbaycan" nəşriyyatında çap edilmiş "Xiyabani" (Azərbaycan xalqının milli azadlıq mübarizəsi tarixindən)" adlı əsərində, M.Xiyabani hərəkatının görkəmli tədqiqatçısı, t.e.d., professor Ş.Tağıyevanın 1956-cı ildə rus dilində çap olunan "1917-1920-ci illərdə İran Azərbaycanında milli azadlıq hərəkatı" və Ş.Tağıyevanın "1920-ci il Təbriz üsyanı" adlı əsərlərində, f.e.d., professor V.Əhmədin "Şeyx Məhəmməd Xiyabaninin həyatı, mühiti və ədəbi fəaliyyəti", M.İbrahimovun "Cənubi Azərbaycanda milli demokratik hərəkat haqqında" məqaləsində, t.e.d. E.Mədətlinin "İranda Azərbaycan tarixi məsələləri" adlı əsərinin IV fəslində "Cənubi Azərbaycanda Şeyx Məhəmməd Xiyabani hərəkatı", AMEA-nın Şərqşünaslıq İnstitutunda "Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı-90" adlı elmi konfransının məqalələr toplusunda Güney Azərbaycanda ingilis imperializminə və İran irticaçılarına qarşı aparılan mübarizələrin sosial-iqtisadi köklərini araşdırmış və milli azadlıq hərəkatı və onun məğlubiyyətinin səbəblərini, 1920-ci il Təbriz üsyanı, üsyan nəticəsində yaranan Milli Hökumətin fəaliyyəti, Xiyabaninin ictimai, siyasi fəaliyyəti, fəlsəfi görüşləri, publisistikası və s. məsələr tədqiq və təhlil edilmişdir.

Pəhləvilər hakimiyyəti illərində (1925-1979-cu illər) Güney Azərbaycanda milli hərəkat və bu hərəkata başçılıq edən şəxsiyyətlər haqqında yazmaq rəsmən yasaq edilmişdi. 1960-cı illərdə görkəmli tarixçi Əli Azərinin "Təbrizdə Şeyx Məhəmməd Xiyabani üsyanı" adlı fundamental əsərində, kitabın eyni zamanda Ankarada da "Ali Azeri. Azadistan devleti ve Şeyx Muhammed Hiyabani (1918-1920). Ankara, 277 s." nəşrində, təbrizli tarixçi-alim S.Sərdariniyanın "Azərbaycan məşhurları" adlı kitabın II cildində, S.Cavidin "Xatirə dəftərindən" adlı kitabında Xiyabani şəxsiyyətinə və onun başçılıq etdiyi hərəkata, H.Düzgünün "Şeyx Məhəmməd Xiyabani həmmaməsi" kitabında, H.Nitqinin Şeyx Məhəmməd Xiyabani haqqında şeirində, Ə.Kəsrəvinin kitabının VI fəslində "İşin başa çatması və Xiyabaninin öldürülməsi" adlı bölməsində M.Xiyabani qiyamı adlı kitabının bir çox yerində Xiyabani şəxsiyyətinin böyüklüyünü, savadlı olmasını, alovlu nitqləri Ş.M.Xiyabaniyə xüsusi yer vermiş, Şeyxin yorulmaz mübarizəsini tarixi faktlarla sübut edilmişdir.

Tarixşünaslıqda Xiyabani və Xiyabani hərəkatı haqqında "Azərbaycan" qəzeti tərəfindən nəşr edilmiş "Şeyx Məhəmməd Xiyabani. Azərbaycan və Azərbaycan demokratik qüvvələri" Qafar Kəndlinin müqəddiməsi ilə oxucuya təqdim olunan bu kitabda Xiyabaninin bir sıra məqalələri və nitqləri verilmişdir.

Azərbaycan Milli Hökumətinin rəhbəri S.C.Pişəvəri 1946-cı il oktyabrın 2-də "Gülüstan" bağında Xiyabani büstünün açılışı ilə əlaqədar söylədiyi tarixi nitqində demişdir: "Rəşidlik zirvəsinə baxsaq, Səttar xan qəhrəman imiş. O, düşmən qabağında təslim olmamışdı. Amma fikir, elm və məlumat nöqteyi-nəzərindən baxsaq, Şeyxin məqamı fövqəladə böyükdür. Sərdar rəşid imiş, Şeyx o xasiyyətlərə malik halda, bir də onun alimlik məqamı var idi". Azərbaycan Milli Hökumətinin (12.12.1945-12.12.1946) mövcud olduğu bir il ərzində Xiyabaniyə büst qoymaqla yanaşı, Xiyabaninin adına məktəb də verilmiş, Xiyabaninin ailəsi üçün Azərbaycan Milli Hökumətinin qərarı ilə xüsusi təqaüd də ayrılmışdır.

Bundan başqa, İran tarixşünaslığında İran müəlliflərindən Ə.Kəsrəvinin "Tarixe-hicdəhsaley-e Azərbaycan", Turac Atabəkinin "Azərbaycan dər İrane moaser", Z.Qiyaminin "Şərhe hal və eqdamate Şeyx Məhəmməd Xiyabani be qələme çənd nəfər əz dustan və aşniyane u", H.Məkkinin "Tarixe bist sale İran", B.Kavənin "Qiyame lahutiye Təbriz bəhmən 1300" və s. əsərlərində, İran mətbuatı və dərgilərində isə Xiyabani şəxsiyyəti və onun başçılıq etdiyi hərəkat haqqında İranda və Cənubi Azərbaycanda çıxan bir sıra qəzet və jurnallarda xüsusi yer verilmişdir. "Nəvide Azərbaycan", "Şəmse Təbriz", "Azərbaycanın səsi", "Əxtər" kimi qəzetlər, "Varlıq", "Tribun", "Xudafərin", "Azərbaycanın günəşi", "Yol" və s. dərgilərdə Ş.M.Xiyabani hərəkatı və onun fəaliyyəti haqda məlumatlar öz əksini tapmışdır.

Xarici tarixşünaslıq və elmi ədəbiyyatda. Xiyabani hərəkatı və Şeyxin siyasi fəaliyyətini əks etdirən A.A.Vişneqradovanın "İran Azərbaycanında inqilabi hərəkat", Q.Q.İlyinskinin "Şeyx Məhəmməd Xiyabani" adlı məqalələrində, eləcə də amerikalı tarixçi T.Svietoxovskinin "Rusiya Azərbaycanı. 1905-1920" əsərində məlumatlar verilmişdir.

Azərbaycan xalqının ictimai, siyasi və dövlət xadimi olan Ş.M.Xiyabani və onun başçılıq etdiyi o taylı bu taylı Azərbaycan tarixşünaslığında mühüm yer tutur. Lakin bunu qənaətləndirici etmək olmaz. Bu böyük şəxsiyyətin fəaliyyəti hərtərəfli tədqiq və təhlili tədqiqatçıların gündəmində duran məsələ olmalıdır. Xiyabani XX əsr tariximizin bir nöqtəsidir. Onu hərtərəfli öyrənmək yeni və gələcək nəsillərə çatdırmaq hər bir xiyabanişünasın vətəndaşlıq və ziyalılıq borcudur.

Sübhan TALIBLI
AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent

YUBİLEY

Görkəmli alim, nəcib insan

Azərbaycanda kimya elminin inkişafında dəyərli xidmətləri olmuş, neft kimyası, neft emalı, yüksək molekullu birləşmələr kimyası sahələrində tanınmış mütəxəssis, kimya elmləri doktoru, professor, akademik Sahib Museyib oğlu Əliyev yaddaşlarda sadə, təvazökar insan, əsl ziyalı kimi yaşayır.

Bu ilin mart ayının 15-də Sahib Museyib oğlu Əliyevin anadan olmasının 90 ili tamam olur. O, 1933-cü ildə Gədəbəy rayonunda anadan olmuş, orta məktəbi qızıl medalla bitirdikdən sonra 1949-cu ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstituna (indiki ADNSU) "Neftin və qazın texnologiyası" fakültəsinə daxil olmuş, 1954-cü ildə mühəndis-texnoloq ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. Həmin il V.V.Kuybişen adına Azərbaycan Elmi-Tədqiqat Neft Emalı İnstitutuna (indiki Neft-Kimya Prosesləri İnstitutu) aspiranturaya daxil olmuş və o vaxtdan ömrünün sonuna kimi elmi fəaliyyəti NKPİ ilə bağlı olmuşdur. Əmək fəaliyyətinə 1958-ci ildə kiçik elmi işçi kimi başlamış S.M.Əliyev həmin il namizədlik dissertasiyasını uğurla müdafiə etmiş və artıq 1959-cu ildə elmi və təşkilatçılıq bacarığı nəzərə alınaraq "Plastik kütlələr" laboratoriyasına müdir müavini vəzifəsinə irəli çəkilmişdir.

S.M.Əliyev Respublikamızda və onun hüdudlarından kənarda elmi dairələrdə neft kimyası və polimer kimyasının inkişafı sahəsində apardığı fundamental tədqiqatlarla tanınmış bir alim idi. Apardığı ilkin elmi-tədqiqat işləri aromatik karbohidrogenlərin və onların oksitörəmələrinin heterogen katalitik alkilləşmə, tsikloalkilləşmə, tsikloalkenilləşmə, arilalkilləşmə, izomerləşmə, destruktiv alkilləşmə reaksiyalarının, alken və arilalkenlərin hidrostabilləşməsi, etilen rabitəsinin seçici hidrogenləşməsi proseslərinin gedişinin öyrənilməsinə benzolun, fenolun alkil, tsikloalkil, tsikloalkenil törəmələrinin ekoloji zərərsiz alınma üsullarının işlənib hazırlanmasına həsr olunmuşdur. Alkil-, tsikloalkilaromatik karbohidrogenlərin, difeniletanlar və onların alkil törəmələrinin dehidrogenləşmə reaksiyalarının tədqiqi stirolun alkil, oksitörəmələrinin, ?-metilstirolun, divinilbenzolun, ?-fenilstirol və onun alkil, alkenil törəmələrinin, difenil və alkildifenillərin alınma proseslərinin əsasını qoymuş, katalizatorun qaynar layında alınma texnologiyalarını işləyib hazırlamağa imkan vermişdir.

Bu geniş tədqiqatların nəticələri S.M.Əliyevin 1967-ci ildə müdafiə etdiyi "Alkil-, alkenilaromatik karbohidrogenlərin və onların oksitörəmələrinin heterogen-katalitik sistemlərdə alınması və çevrilməsinin tədqiqi" mövzusunda doktorluq dissertasiya işinin əsasını təşkil etmişdir. Keçmiş SSRİ Ali Attestasiya Komissiyasının qərarına əsasən S.M.Əliyevə 1967-ci ildə kimya elmləri doktoru alimlik dərəcəsi, 1971-ci ildə isə "Neft kimyası və neftkimyəvi sintez" ixtisası üzrə professor elmi adı verilmişdir.

Elmi potensialı, təşkilatçılıq bacarığı ilə fərqlənən S.M.Əliyev 1969-cu ildə NKPİ-nin "Oliqomerlər" laboratoriyasının müdiri vəzifəsinə təyin olunmuş, 1970-1976-cı illərdə laboratoriya müdiri vəzifəsi ilə yanaşı, "Plastik kütlələr" şöbəsinin müdiri vəzifəsini icra etmişdir.

Sahib Əliyev və həmkarları tərəfindən yeni sinif polifunksional monomerlərin, vinil və p-izopropilfenolların allil, qlisidil və mürəkkəb efirlərinin alınma üsullarını, onların əsasında kompleks yararlı fiziki-mexaniki istismar göstəriciləri ilə xarakterizə olunan yeni sinif oliqomer və sooliqomerlərin alınmasının elmi əsaslarını işlənib hazırlamış və təcrübə sınaq zavodunda p-izopropenil fenollar, doymamış fenolformaldehid qətranlarının istehsalı təşkil edilmişdir.

O, keçmiş SSRİ EA Elmi-Tədqiqat Üzvi-Sintez İnstitutu "Karbolit" Elm İstehsalat Birliyi (Moskva), Ümumittifaq Aviasiya Materialları İnstitutu və Azərbaycan Dövlət Universiteti ilə birgə termiki davamlı, yüksək dielektrik göstəricilər ilə fərqlənən yeni tərkib plastik kütlələr, iqtisadi cəhətdən sərfəli və keyfiyyətli yeni nəsil vertolyot, təyyarə mühərriklərində tətbiqə yararlı yapışqan tərkiblər işləyib hazırlamışdır.

Sahib Əliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə neftin pirolizindən alınan maye məhsulların karbohidrogen tərkibinin tədqiqi və aromatik karbohidrogenlərin, lak və boyaların istehsalında tətbiq olunan bitki yağlarını effektiv əvəz edən örtükəmələgətirici oliqomerlərin, epoksid qətranı üçün tikici komponent - iki əsaslı turşu anhidridlərinin evtektik qarışığı və suda həll olan oliqomer sulfonatların alınması ilə kompleks emalı prosesi işlənib hazırlanmış və yarım sənaye miqyasında istehsalı həyata keçirilmişdir. Pirolizin maye məhsullarının - stirol, inden, stirol inden fraksiyasının radikal və kation mexanizmi ilə oliqomerləşməsi reaksiyası tədqiq olunmuş və örtükəmələgətirici neft-polimer qətranının alınması prosesi işlənib hazırlanmışdır. Aparılmış tədqiqatlar əsasında pirokondensatın benzol, toluol, solvent və neftpolimer qətranı alınması ilə kompleks emalı həyata keçirilmişdir.

Sahib Əliyev 1983-cü ildə Azərbaycan SSRİ Elmlər Akademiyasının müxbir üzvü, 1989-cu ildə həqiqi üzvü, seçilmişdir.

Sahib Əliyevin rəhbərliyi ilə ekoloji zərərsiz sulfoturşuların sintezi sahəsində aparılmış tədqiqatları xüsusi qeyd etmək lazımdır. Aromatik karbohidrogenlərin homogen fazada sulfolaşma prosesinin elmi əsasları tədqiq edilərək maksimal sulfolaşma şəraiti müəyyən edilmiş, bu aromatik sulfoturşular əsasında 99,5% təmizliklə p-alkilfenollar və I-naftolun sintez şəraiti işlənib hazırlanmışdır.

Həyatının son illərində Sahib Əliyev yerli xammal-katalitik krekinq prosesində alınan yüngül qazoyl fraksiyası əsasında beton qarışıqları üçün kimyəvi əlavə - superplastifikatorun ekoloji zərərsiz alınma texnologiyasının elmi əsaslarını işləyib hazırlamışdır. Alınmış superplastifikator sementin keyfiyyət göstəricilərini yaxşılaşdırmaq qabiliyyətinə görə "Koneko-87" (Bratislava) sərgisində diploma layiq görülmüş, bu texnologiya üzrə istehsal olunmuş betona qatqı 1983-cü ildə 52690 saylı hərbi hissədə dəmir beton istehsalında tətbiq tapmış, bu qatqıdan istifadə edilməsinin beton qarışığının axıcılığını yaxşılaşdırdığı, alınan betonun möhkəmliyini yüksəltdiyi və sementin sərfini azaltdığı qeyd edilmişdir.

Sahib Əliyevin rəhbərliyi ilə aparılmış bir sıra tədqiqatların nəticələri təcrübə-sınaq və sənaye miqyasında tətbiq tapmışdır:

- Oliqoarilalkenlərin və aromatik karbohidrogenlərin alınması ilə pirolizin maye məhsullarının kompleks emalı prosesi - Bakı "Neftqaz" zavodunda, Koxtla-Yarve və Slants şəhərlərində "Şist emalı" kombinatlarında;

- Oliqodivinilstirol lakının alınma prosesi - Azərbaycan MEA NKPİ-nin Təcrübə-Sınaq və Sumqayıt şəhəri "Sintetik kauçuk" zavodlarında;

- Oliqodivinilstirol və polidienyağ əlifi və onun əsasında boya alınması prosesi - Kursk "Məişət kimyası" zavodunda, Mahaçqala "Kimya" zavodu və Ust-Kamenoqorsk "Titan-maqnezium" kombinatında;

- Yerli xammal-neftin katalitik krekinqindən alınan yüngül qazoyl fraksiyası əsasında beton qarışıqları üçün kimyəvi qatqının-superplastifikatorun alınma prosesi - Azərbaycan MEA NKPİ-nin Təcrübə-Sınaq zavodunda və Novomoskovski "Üzvisintez" zavodunda.

Sahib Əliyevin apardığı elmi-tədqiqat işlərinin nəticələri 500-dən çox elmi əsərdə, o cümlədən 1 monoqrafiya, 165 müəlliflik şəhadətnaməsində və ABŞ, İngiltərə, Fransa , İtaliya, Hollandiya, Yaponiya, Hindistan, Çexoslovakiya və digər dövlətlərin 25 patentində öz əksini tapmışdır. O, neft kimyası, monomerlər, oliqomerlər, yüksəkmolekullu birləşmələr və katalizə həsr olunmuş çoxsaylı ümumittifaq, beynəlxalq konfrans və simpoziumlarda çıxış edərək Azərbaycan kimya elmini ləyaqətlə təmsil etmişdir. S.Əliyev "Neft kimyası" ixtisası üzrə Elmi Şuranın "Monomer və oliqomerlərin kimyası və texnologiyası" bölməsinin sədri, NKPİ və M.Əzizbəyov adına Azərbaycan Neft-Kimya İnstitutunda kimya elmləri namizədi və doktoru elmi dərəcəsi verilməsi üzrə İxtisaslaşdırılmış şuraların üzvü olmuşdur.

S.Əliyev elmi-tədqiqat işləri ilə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. 1960-70-ci illərdə M.Əzizbəyov adına Azərbaycan Neft-Kimya İnstitutu və Ç.İldırım adına Politexnik İnstitutunda müəllim vəzifəsində işləmiş, yüksək ixtisaslı kimyaçı-texnoloq kadrların yetişməsində fəal iştirak etmişdir. Onun rəhbərliyi ilə 35 elmlər namizədi, 3 elmlər doktoru hazırlanmışdır.

Məhsuldar elmi və elmi-pedaqoji fəaliyyətinə görə Sahib Əliyev Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı, ÜİXT nailiyyətləri sərgisinin gümüş medalı və diplomları ilə təltif olunmuşdur.

Akademik Sahib Əliyev 7 fevral 1990-cı ildə qəflətən vəfat etmişdir.

Gözəl alim, tanınmış kimyaçı, xeyirxah insan Sahib Əliyev daim qürur hissi ilə xatırlanacaqdır. O, şərəfli və gənclərə örnək olacaq bir ömür yaşamışdır.

Vaqif ABBASOV
Akademik Y.H.Məmmədəliyev adına Neft Kimya Prosesləri İnstitutunun baş direktoru, akademik

ELAN

"Heydər Əliyev və Azərbaycan təbiəti" mövzusunda elmi-praktiki konfrans

31 may 2023-cü il tarixində Bakı şəhərində AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş "Heydər Əliyev və Azərbaycan təbiəti" mövzusunda elmi-praktiki konfrans keçiriləcək.

Konfransın əsas elmi istiqamətləri:

1. Azərbaycanın təbii kompleksləri, ekosistem tədqiqatları, ətraf mühitin qorunması;
2. Bioloji müxtəliflik, onun mühafizəsi və səmərəli istifadəsi;
3. Qorunan ərazilər, onların idarəolunması problemləri;
4. Azərbaycanın landşaftlarının torpaq və su ehtiyatları;
5. Ekoloji və bioloji resursların dinamikası, populyasiya tədqiqatları;
6. Paleobiologiya və geobiologiya;
7. Canlı növlərin tədqiqinə müasir (o cümlədən molekulyar-genetik) yanaşmalar;
8. Azərbaycan təbiətinə dair elektron məlumat bazaları və rəqəmsal xəritələşdirmə;
9. İşğaldan azad edilmiş ərazilərin təbiəti;
10. Ekoturizm.

Tezislər conference.biol.2023@gmail.com elektron ünvanına göndərilməlidir (əlaqə tel.: (+994 50) 463 63 27). Tezislərin göndərilməsi üçün son tarix 05.05.2023-cü ildir.

Konfransın dili: Azərbaycan və ingilis dilləri

Tezisin göndərildiyi məktubun mövzu yerində "Konfrans-Azərbaycan təbiəti" sözlərinin yazılması tələb olunur.

Tezis faylının (Word) adı birinci müəllifin latın hərfləri ilə yazılmış soyadı və adı ilə başlanmalıdır.

Tezislərin tərtibi qaydaları

Tezisin adından yuxarıda sağdan aid olduğu seksiyanın nömrəsi göstərilir və sonra bir sətir buraxılır.

Tezisin mətni:

- Tezislər Word A4 formatında, Arial 12 pt şrifti ilə (sahələr: hər tərəfdən 2 sm qoyulmaqla), sətirlərarası 1.05 olmaqla, ən çoxu 1 səhifə həcmində olmalıdır;
- Abzaslar arasında məsafə qoyulmur, mətn hər iki tərəfdən düzləndirilir;
- Tezisin adı ortadan böyük hərflərlə BOLD (qara) şriftlə, bir sətir buraxdıqdan sonra növbəti sətirdə ortadan BOLD şriftlə tezisin müəlliflərinin ad və soyadları (ad açıq yazılır), bir sətir buraxdıqdan sonra otradan italik şrifti ilə hər müəllifin iş yeri, ölkəsi, korrespondent* müəllifin e-mail ünvanı verilir;
- Bir sətir buraxıldıqdan sonra abzasdan (abzas - 1 sm) adi şriftlə əsas mətn başlanır.

Tezislər orijinal tədqiqat işlərinin nəticələrini əks etdirməlidir. Tezis təqdim edən şəxslər konfransda mütləq çıxış etməlidirlər.

Tezislər təşkilat komitəsinin dəyərləndirməsindən sonra nəşr üçün qəbul ediləcəkdir. Tələblərə uyğun olmayan tezislər çap olunmayacaq.

"Heydər Əliyev və xalq mədəniyyəti" mövzusunda respublika elmi konfransı

16 may 2023-cü il tarixində AMEA-nın Folklor İnstitutunun təşkilatçılığı ilə Ümummilli Liderin anadan olmasının 100 illiyi münasibətilə "Heydər Əliyev və xalq mədəniyyəti" mövzusunda respublika elmi konfransı keçiriləcək.

Konfrans üçün məruzələr iki istiqamətdə nəzərdə tutulub:

- Heydər Əliyevin elm, xalq mədəniyyəti sahəsindəki fəaliyyətini əks etdirən məruzələr;
- Heydər Əliyevin irəli sürdüyü tezislər, tövsiyələr, müdrik kəlamlar əsasında folklorun ayrı-ayrı məsələləri ilə bağlı məruzələr.

Mühüm tarixlər:

Konfransda iştirak etmək istəyənlər məruzələrinin tam mətnini 1 aprel 2023-cü il tarixinədək 100.illik@mail.ru elektron poçt ünvanına göndərə bilərlər. Tam mətnlərin qəbul edilib-edilmədiyi haqqında müəlliflərə 20 aprel 2023-cü il tarixinədək elektron poçt ünvanı vasitəsi ilə məlumat veriləcək.

Məruzələrin yazı qaydaları:

- İlk olaraq məruzənin adı, ardınca Azərbaycan və ingilis dillərində özətlər (150-200 sözdən ibarət olmalıdır), daha sonra tam mətn və sonda istifadə edilmiş ədəbiyyat siyahısı verilməlidir;
- İstifadə edilmiş ədəbiyyat siyahısı məruzənin sonunda "Qaynaqlar" yarımbaşlığı altında yazılmalıdır. Ədəbiyyat siyahısı müəlliflərin soyadlarına uyğun olaraq əlifba sırası ilə düzülməli, sıra nömrəsi göstərilməlidir. Məruzədə istifadə edilməyən ədəbiyyat qaynaqlarda göstərilməməlidir. Əgər məruzəçi arxiv sənədlərindən, dissertasiyalardan, əlyazma hüququnda olan materiallardan istifadə etmişsə, onlar da "Qaynaqlar"da göstərilən qaydada yazılmalıdır;
- Məruzə başlığı 12 şrift ölçüdə yağlı, özətlər 11 şrift, tam mətn 12 şrift ölçüdə, interval 1,5;
- Məruzədə ətək yazısı (snoska) olduqda internet saytında yerləşdirilərkən problemlər yaradır. Buna görə də ətək yazısı (snoska) ilə olan məruzələr qəbul edilmir. Məruzə daxilində qaynaqlar kodlaşdırılmış qayda ilə verilməlidir.

Məqalələr kitab halında nəşr ediləcək.

"Heydər Əliyev və Azərbaycan neft strategiyası: neft-qaz geologiyası və geotexnologiyalarında irəliləyişlər" mövzusunda beynəlxalq konfrans

23-26 may 2023-cü il tarixlərində AR Elm və Təhsil Nazirliyi Neft və Qaz İnstitutunun təşkilatçılığı ilə Bakı şəhərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş "Heydər Əliyev və Azərbaycan neft strategiyası: neft-qaz geologiyası və geotexnologiyalarında irəliləyişlər" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçiriləcək.

Konfransda neft-qaz geologiyası, geokimyası, geofizikası, neft və qaz yataqlarının işlənməsi, quyuların qazılması, süxur mexanikası və geoekologiya istiqamətləri üzrə alim və mütəxəssislər iştirak etməyə dəvət olunur.

Konfransın əsas elmi istiqamətləri:

- Neft və qaz yataqlarının geologiyası, geokimyası, axtarışı və kəşfiyyatı, karbohidrogen ehtiyatlarının qiymətləndirilməsi və karbohidrogen sistemlərinin modelləşdirilməsi;
- Neft və qazın axtarışı və kəşfiyyatının geofiziki üsulları və müasir texnologiyaları;
- Neft və qaz yataqların işlənməsi, quyuların qazılması və süxurların mexanikası.

Konfrans çərçivəsində "Yerin deqazasiyası, istixana qazlarının emissiyaları və karbon qazının basdırılması şəraiti" mövzusunda elmi forumun keçirilməsi nəzərdə tutulur.

Daha ətraflı məlumatı https://conference.ogi.az/ rəsmi internet saytından əldə etmək olar.

Konfrans üçün tezislərin qəbulu 10 aprel 2023-cü il tarixinədək davam edəcək. Konfransın rəsmi dilləri: Azərbaycan, ingilis və rus dilidir. Məruzənin genişləndirilmiş tezisi bu dillərdən birində yazıla bilər.

Tezis təklif olunan şablonda tərtib edilməli və 4 səhifədən ibarət olmalıdır. Azərbaycan, ingilis və rus dillərində şablonları konfransın saytından endirmək olar. Şablondakı mətnlər tələblərə uyğun formatdadır, onları sadəcə öz mətninizlə əvəz etmək kifayətdir. Tezis annotasiya, açar sözlər və strukturlaşmış əsas mətn (giriş, metod və ya nəzəriyyə, müzakirə və nəticə bölmələri olmaqla) formasında tərtib edilməlidir. Tezisə ən azı 1 şəkil əlavə etmək mütləqdir. Tezisin sonunda istifadə edilmiş ədəbiyyat siyahısı yerləşdirilməlidir.

MÜSABİQƏ

Qafqazşünaslıq İnstitutu

AMEA Qafqazşünaslıq İnstitutu vakant olan aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə elan edir:

Ermənişünaslıq şöbəsi üzrə:

Şöbə müdiri - 1 yer (Müsabiqədə elmlər doktoru və ya fəlsəfə doktoru elmi dərəcəsi olanlar iştirak edə bilərlər);

Elmi işçi - 1 yer (Müsabiqədə magistr elmi-ixtisas dərəcəsi olanlar və ya fəlsəfə doktorluğu hazırlığı üzrə dissertantlar iştirak edə bilərlər);

Elmi işçi - 1 yer (Müsabiqədə magistr elmi-ixtisas dərəcəsi olanlar və ya fəlsəfə doktorluğu hazırlığı üzrə dissertantlar iştirak edə bilərlər).

Gürcüstanşünaslıq şöbəsi üzrə:

Şöbə müdiri - 1 yer (Müsabiqədə elmlər doktoru və ya fəlsəfə doktoru elmi dərəcəsi olanlar iştirak edə bilərlər);

Aparıcı elmi işçi - 1 yer (Müsabiqədə elmlər doktoru və ya fəlsəfə doktoru elmi dərəcəsi olanlar iştirak edə bilərlər);

Kiçik elmi işçi - 1 yer (Müsabiqədə magistr elmi-ixtisas dərəcəsi olanlar iştirak edə bilərlər).

Şimali Qafqaz şöbəsi üzrə:

Şöbə müdiri - 1 yer (Müsabiqədə elmlər doktoru və ya fəlsəfə doktoru elmi dərəcəsi olanlar iştirak edə bilərlər);

Elmi işçi - 1 yer (Müsabiqədə magistr təhsili olanlar və ya fəlsəfə doktorluğu hazırlığı üzrə dissertantlar iştirak edə bilərlər);

Kiçik elmi işçi - 1 yer (Müsabiqədə magistr elmi-ixtisas dərəcəsi olanlar iştirak edə bilərlər).

Qafqaz tarixi (qədim dövrlərdən XX əsrədək) şöbəsi üzrə:

Şöbə müdiri - 1 yer (Müsabiqədə elmlər doktoru və ya fəlsəfə doktoru elmi dərəcəsi olanlar iştirak edə bilərlər).

Qafqaz tarixi və siyasəti (XX-XXI əsrlər) şöbəsi üzrə:

Şöbə müdiri - 1 yer (Müsabiqədə elmlər doktoru və ya fəlsəfə doktoru elmi dərəcəsi olanlar iştirak edə bilərlər);

Elmi işçi - 1 yer (Müsabiqədə magistr elmi-ixtisas dərəcəsi olanlar və ya fəlsəfə doktorluğu hazırlığı üzrə dissertantlar iştirak edə bilərlər).

Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq, elan dərc edilən gündən etibarən 1 ay müddətində elmi katibliyə təqdim edilməlidir.

Ünvan: Bakı ş., H.Cavid pr., 115, IV mərtəbə, 448-ci otaq
Telefon: (+994 12) 539 89 91

İnformasiya Texnologiyaları İnstitutunun həmtəşkilatçılığı ilə beynəlxalq konfrans

12-15 sentyabr 2023-cü il tarixlərində Rusiyanın Kursk şəhərində İnformasiya Texnologiyaları İnstitutunun həmtəşkilatçılığı ilə "Təsvirlərin emalı və obrazların tanınması sistemlərində optoelektron avadanlıq və qurğular - Tanıma-2023" (Оптико-электронные приборы и устройства в системах распознавания образов и обработки изображений - Распознавание-2023) XVII beynəlxalq elmi-texniki konfransı keçiriləcək.

